АРХИВ

N. Narimanov.

# Pir



894.3-3
N-60

16553

Azərnəşr
Bakь — 1930

N. NƏRIMANOV.

1930
689

894.362
N-60 55

# PIR

16549

QIRI ... QETUBXANASI
Inv. № 6555

04068

AZƏRNƏŞR
BAQЬ—1930

*kabьgьnь vә şәqillәrini rәssam*
*Ә. Әzimzada çәqmişdur*

*AZӘRNӘŞR mәtbәәsindә basьldь*
*Baqь, Balşoj Marskoj vә Krasno - Presnenьqi quçәlәrin tınındә № 16/36*
*Baş Mәtbyat Mudirliqi 6125*
*Sifariş 886 Sajь 3000*

I

Ijyn ajьnьn ortasь idi. Qunlәr çok isti qeçirdi... meşәdi Allahverәn sabah namazьna dyryb, arvadьnь tәlәsiq dyrkyzdy:

—Aj kьz, Qulbadam! Qulbadam! Tez ol dyr, yşagь da dyrkyz, vakt qeçir, hava sәrin iqәn, jola duşәq.

Qulbadam sәrsәm jykydan ojanьb otyrdy, qөzlәrini ova-ova ojan-byjanьna bakdь. istәdi әrinә dejә: nә uçun çьgьr bagьr edirsәn jatmaga kojmajьrsan.... sonra fiqrinә qәldi qi, qәrәq pirә qedәlәr... Heç bir şej sөjlәmәjib, bir az qәrnәşdi, sonra әllәrilә qөzlәrinә duşәn saçlarьnь duzәltdi, bojnyna duşmuş ag çit kara çiçәqli jajlьgь başьna salьb, bogazьnьn altьndan sьkdь, ag donyny qejindi, әsnәdi, istәr-istәmәz ajaga dyrdy. Uzsuz boz balьşь uzu kьrmьzь çiçәqli çitdәn, mutәqqәni dөşәqin ortasьna kojdy, sonra jorgan әvәzinә ustunә saldьgь ag dөşәq uzunu katlajьb istәjirdi jerini jьgsьn, by vakt meşәdi Allahverәn namazьnь kyrtarьb arvadьna dedi:

—Jerlәri jьgmak istәmәz, qәlәrsәn, sonra jьgarsan, vakt qeçir, sәn yşagь dyrkyz!

Qulbadam, dөşәqi byrakьb, iqi dizlәri ustә çөqub bir az yşagьn uzunә bakьb, ag qiseji qөjnәqinin enli kollarь ilә yşagьn alnьndaqь tәri sildi vә sonra: «Cәbi! anan sәnә kyrban Cәbi! ojan dyr qedәq, dәdәn sәni «tuşijә mindirәcәqdur» dejә dyrkyzyrdy.

—Bir az javaş, korkar!—dejib məşədi Allahverən axьrьncь dyasьndan əl çəqdi.

Axьrьncь sөzləri də by idi:—Pervərdiqara! Mənim by balama nicat ver!—ondan kabakqь sөzlər də byna okşar sөzlər idi—daha dogrysy sөzlər dejil idi, fiqirlər idi; həmişə namazdan sonra əllərini jykarь kaldьrьb fiqrindən qeçirərdi: Pərvərdiqara! өzun şahьdsan, byjyrdygyn əmrləri jerinə jetirirəm: orycymy dytyram, namazьmь kьlьram... өzun şahьdsan, rəbbim! Jetir pərvərdiqara! By «jetir» sөzunu hər vakt dejəndə tamam məişətini, alьnь, verini, zərərini, xejrini fiqrindən qeçirirdi. Elə də deji! idi qi, «Ehdinəssiratəlmustəkim»in mə'nasьnь bilib də, daha «allah mənə dogry jol qөstər» qibi sөzləri bir də təqrar etməqə ehtijac kalmaja idi. Xejir, meşədi Allahverən duz əlli jaşьnda idi və on beş jaşьndan namaz kьlardь, by sөzlərin mə'nasьnь bilməzdi və heç fiqrinə qəlməzdi qi, namazda dejirlər: allah! mənim urəqimi təmizlə, mənə dogry jol qөstər, o joly qi, sənin tərəfinə qedir, o joldan yzak etmə qi səndən yzak duşur, mənim kəlbimi jymyşalt, həlim və mehriban et...belə fiqirləri meşədi Allahverən, nə-inqi namaz vaktьnda, hətta mərsijəxan okyjanda da başьndan qeçirtməzdi. Bir qun hətta mərsijəxan agzь kьzьşmьş bir vaktda dedi: Ej camaat durust kylak veriniz, dizi ustə əjləşiniz, bir fərd okyjacagam deməjirəm başьnьza vyryn, jok; ancak by okydygym sөzlərə qөz jaşь təqərsiniz isə, və haman dəm urəqinizdən nə istəsəniz, kəbyla qeçər. Meşədi Allahverən dogrydan da çok-çok agladь və urəqindən byny qeçirtdi: Allah mənə bir evlad ver!

Zatən meşədi Allahverənin ancak belə fiqirdə olmagьnьn və by qibi şejlər өz allahьndan istəməqinin səbəbi var idi. Onyn heç bir şejə ehtijacь jok idi. Duqanь jaxşь işləjirdi, jaxşь kazanьrdь. Hala bir az bankda, bir



az da əllərdə prosent ilə pyllarь dolanьr idi. Fəkət bir şejdən bədbaxt idi: evladь olmajьrdь. Meşədi Allahverən ibtida bir arvat aldь, qөzəl, qөjçəq; 30 il onynla qun qeçirib evladь olmadь. Sonra istədi birini də alsьn, arvat razь olmajьrdь. Urəqdən boşamak da istəjirdi. Fəkət korkyrdy. Çunqu arvadьn kohymlarь bir az kolyçomak hesab olynyrdylar. Axьrda əlacь uzulub arvat ilə qundə dava kalmagal edərdi, dejirlər: qyja dөjərdi, sөjərdi hətta ac da kojardь... By səbəbdənmi və ja bir gejri bir səbəbdən arvadь өldu. Iqinci dəfə qənə bir paqizə kьz aldь. Uç ilin ərzində iqi dəfə yşaga kaldь: birində uç ajlьk, iqinci dəfə altь ajlьk yşaklarь duşurdu. By biçarə arvat vaktsьz dogmakdanmь və ja gejri bir səbəblərdən, agrьlara, mərəzlərə mubtəla oldy. Qun-bə-qun ərijib, qah karnьndan dad vyrardь. Qah başьndan, qah butun bədənini agrь dytardь. Meşədi Allahverənin byna jazьgь qəlib boşamak istəməzdi. Çunqu arvadьn heç bir qəsi jok idi; fəkət atasьndan kalan bir-iqi evin sahьbь idi. Meşədi Allahverən bilirdi qi, boşasa jazьk arvat təq evləri dolandьra bilməjəcəqdur. Ona binaən boşamak da istəməjirdi. Fəkət arvat həmişə naxoş, zəif oldygyna qөrə ev işləri jaxşь qetməjirdi... Meşədi də «məhrəm» bir «kyllykçy» qəzirdi By fiqrini aşqar edib, arvadьndan izin istədi. Arvadь da çarəsiz kalьb razь oldy. Tələsiq javьk qəntdən dyl, çopyr Qulbadamь aldь. Dogrysyny da deməq: meşədinin daha o vaktь dejil idi qi, qөzəl kьz arasьn. Əlli jaşьnda başь balaca, uzu enli, byrny jeqə, balaca boj, qөzləri bir az çəp, həna altьndan bozaran sakkallь bir qişijə nə qөzəlliq aramak? Xejr, meşədi Allahverən өz «kədir-kijmətini» bilən adam dejil isə də, daha çok da qөzəl arvat almak fiqirlərini etməzdi. Ona ancak evlad lazьm idi. Ona binaən Qulbadamь aldь, fəkət nə uçun şəhərdən almajьb qəntdən aldь! Qulbadam qibi şə-

hərdə çok dyllar var idi. By da bir qizlin məsələ idi. Ancak meşədi өzu bilirdi... Hər halda pirin adь çəqiləndə Qulbadamьn da adь çəqilirdi... Meşədi də fiqir edərdi: bəlqə Qulbadam pir sevən xoşbaxtlarьndandyr...Işdə Qulbadamь aldь qi, bəlqə evladь ola. Dogrydan da bir il qeçməmiş Qulbadam yşaga kaldь. By vaktlarda da meşədi Allahverənin naxoş arvadь bir sumuq, bir dəridə iqən, canьnь tapşьrdь. Bynyn өlməqi meşədi Allahverəni aglatmadьsa da, urəjini jandьrdь. Çunqu əli arvadьnьn mulqundən çьkьrdь; vərəsələr var idi: Qulbadam arvadьn өlməjinə gejri qunulər qibi nə-inqi sevinmədi, hətta bir az da qəmqin oldy. Çunqu naxoş, zəif arvada jazьgь qəlir idi. Qulbadam urəji jymyşak, rəhimli adam idi. Saglьkьnda zəif naxoş arvada, nə inqi «qunuluq» etməzdi, hətta bir az da hørmət edərdi, vaktьnda xørəqini verərdi, jedizdirərdi və hamama aparьb çimizdirərdi, dejirlər quja: «qunu qununun өlməqini istər»; fəkət by arşьnla hamь qunuləri өlçsəq, işimiz fəna olar....Dogrydan da insan biri--birinin өlməqini istəməq vəhşiliqdir. Dejilmi? Belə isə, iqi arvat! Uç arvat və daha çok arvat almak neçə miljon arvatlarь, vəhşi edərdi...Nə isə, өzqə qunuləri bilməjirəm; fəkət Qulbadam gejrilərinə okşamazdь. By naxoş arvada Qulbadamьn jazьgь qələrdi, jazьgь qələn adamьn өlməqini də istəməzlər... Meşədi Allahverən də vaktьnda by naxoş məzlymə arvadь sevərdi. Fəkət yşak məsələsində ymydyny ondan uzəndən sonra Qulbadama məhəbbətini salmьşdь... Indi odyr, hala dunjanьn ьşьgьnь qørməjən balasьnьn səbəbinə Qulbadamьn başьna pərvanə qibi fьrlanьr, əlini isti sydan sojyk syja vyrmaga kojmajьr; səhər-akşam samavarь өzu kaldьrardь; hətta dogmagьna bir neçə qun kalmьş pilləqənlərdən çьkьb duşməqə də kojmazdь. Çunqu əvvəlinci arvadьn yşak duşurməqini mamalar agьr şej qøturməqdən bilirdilər və dejərdilər:



yşaklьk jerindən ojnajьbdyr... Meşədi bynlarьn hamьsьna inanardь; fəkət hamьdan çok korkyny səbəb bilərdi və oz aləmində iqinci arvadьnьn yşak salmasьnь da korkydan bilərdi; çunqu arvat bir qun mulqundən qələn mədaxьlьn hesabьnь bilməq istərqən bərq døjulmuşdu və hətta ortalьkda xəncər də işləmişdi; o idi qi, meşədi Allahverən çok mərəzin səbəbini korkydan bilərdi, hətta axьr vaktlar akşamlar evə qələndə darvazadan yca səsi ilə okyja-okyja qələrdi qi, arvat gejri bir adam bilib diqsinməsin. Vakt jetişdi, duqana xəbər apardьlar qi, arvat agrь çəqir, meşədi Allahverən tez duqanь baglajьb evə qəldi. Mamalarь çagьrtdь, mamalar işə məşgyl oldylar. Bir qun, bir qecə Qulbadam agrь çəqdi. Bir qun, bir qecə meşədi Allahverən jeməqini, içməqini bilmədi. Qah by karьdan mamanь çagьrardь, qah o karьdan arvadьnьn əhvalьnь xəbər alardь:

— Hə, necə oldy! Necə olacak! Bəs necə olsyn— dejib ojan-byjana jujunurdu; neçə-neçə kyrbanlar və'd etdi, nəzirlər çьkdь, olmadь... Axьrda şəhərin javыklыgьndaqь məşhyr koz agacьnь—«Pir»i fiqrindən qeçirtdi və nəzir etdi qi, yşak tez olsyn, ijirmi manat pirə qøndərsin, byny fiqrindən qeçirmişdi, əvvəl biri otakdan: «Allaha şuqur, allaha şuqur, oglandyr!» sədasь qəldi.

Meşədi by jaşa qəlmişdi, hala belə bir şadlьk bynyn uçun uz verməmişdi. Yşak qibi atьlьb duşərdi. Ijirmi manata kədər myştylyk pyly byrakdь. Tez bazara çьkdь qi, bir az tədariq uçun şejlər alsьn, çyxasьnьn bir kolyny qejib, birini də çijninə atdь, papagьnь əjri kojdy; belə qi, çirqli aragçьnьnьn jarьsь qørunurdu. Tanьş-biliş qørəndə yzakdan qulərdi, ycadan salam verərdi, hətta tanьmajan adamlara da salam verərdi. Bynyn şadlьgьnьn səbəbini bilməjirdilər. Əlbəttə bilsə idilər.

«Meşədi, qөzun ajdьn!» sa da, dejərdilər. Өzu ytanьb, şadlьgьnьn səbəbini dejə bilməjir idi. Bynynla belə meşədi Allahverən çok istərdi qi «Meşədi qөzlərin ajdьn» sөzlərini eşidə, tərs qibi, bir soryşan da jok idi qi, bilinsin: nə uçun həmişə kaş-kabaklь meşədi by qun adamlarьn uzlərinə bakьb irişir; yzakdan yca səslə salam verir, nə uçun papagьnь jan kojybdyr? Xejir, heç qəs! Hətta meşədi Allahverən bir neçə adamьn qejfini də xəbər aldь: Hə! Xala ogly, qejfin necədur? Fəkət by adamlardan da heç biri meşədinin qejfini xəbər almadь qi, bəlqə sөz açьla... Dejəsən, o qun hamьnьn tələsiq işi var idi. Biri o jana qedirdi, biri by jana, salam da verəndə kyry salam verib qeçirdilər. Axьrda meşədi Allahverən yzakdan ən javьk dosty Qərbəlajь Xydaverdini qөrub, qulumsundu, sonra javьklaşanda qulə-qulə dedi:

— Rəfik, jaxşь japrak dolmasь jeməq istəjirsənsə, by akşam qəl bizə.

By sөzləri dejib, Qərbəlajь Xydaverdinin qөzlərinə bakdь qi, bəlqə by isə, şadlьgьnьn səbəbini soryşa. Jok, soryşmadь, bynynla belə meşədi Allahverənin dolmasь qərbəlajь Xydaverdinin bir az fiqirləşməqinə səbəb oldy; çunqu meşədi Allahverən hər saatda dolma jedizdirən adamlardan dejil idi; ona qөrə qərbəlajь Xydaverdi təəccub ilə, rəfikinin uzunə bakdь.

— Hə, mat-mat nə uçun bakьrsan? Soryş, soryş da!

Qərbəlajь Xydaverdi joldaşьnьn əlindən dytyb dedi:

— Dogrydan by nə konaklьkdyr, rəfik?

— Konaklьk-zad jokdyr, fəkət bir səni çagьrьram, əsil konaklьk sonradyr...

— Jə'ni necə sonra!



— A qişi rəhmətliqin ogly, nə uçun duşunməjirsən? Sonra, da! Beş-altь qundən sonra!

Meşədi Allahverən by sөzləri qulə-qulə dejirdisə də, fəkət içindən kovrylyrdy: nə uçun by adamlar bynyn şadlьgьnьn səbəbini sormajьrlar, nə uçun belə bir bөjuq işdən bynlarьn xəbərləri olmasьn? Nə uçun by өz dililə qərəqdur, desin: oglym dunjaja qəlibdur?..

Qərbəlajь Xydaverdi çok da naziq mətləb duşunənlərdən dejil idi. Hətta «beş altь qundən sonra» sөzləri də byna qifajət dejil idi, qərəq açьk-açьgьna dillənə idi. Beş-altь qundən sonra ad kojylacakdyr. Meşədi Allahverən daha səbr etməjib by sөzləri өzu dedi:

— Aj sag ol! Sag ol! Qөzun ajdьn, meşədi!

Qөzunuz ajdьn! çok əcəb!— qərbəlajь Xydaverdinin by sөzləri meşədi Allahverənin butun damarlarьna işlədi, jə'ni by sөzləri meşədi Allahverən butun varlьgь ilə hiss etdi, sonra qyja, ytanьb jerə baka-baka dedi:

— Bəli, allah təala bizə bir ogyl bagьşladь.

By sөzləri dejib, qərbəlajь Xydaverdinin uzunə bakdь, elə bir bakdь qi, qyja qərbəlajь Xydaverdidən qənə də bir sөz qөzləjirdi.

Meşədi Allahverənə xəjal: qərbəlajь Xydaverdi bynyn sөzlərindən sonra qərəq dejə idi:

— Inşaallah, sunnətində, tojynda jejəq, ja-inqi tojynda ojnajak... Nə isə, qərbəlajь Xydaverdi duşunmədi və demədi; deməjib də əli plovdan çьkdь; çunqu qərbəlajь Xydaverdi qөz ajdьnlьgь verən vakt meşədinin fiqrindən plav da qeçdi; fəkət sonra sөzlərin dalь qəlmədi... Meşədi də ancak bir dolmalьk alьb apardь.

Meşədi Allahverən hala çyxasьnь çьkarmamьş, bөjuq mamanь səslədi.

— Hə, əhvalь necədur?

— Jaxşьdyr, jaxşьdyr!





— Ꞡəbəꞡi-zadь ɵz jerindədurmu?

— Bəli, bəli!

Mama «jaxşьdyr-jaxşьdyr» sɵzlərini urəqdən dejməjirdi. Fəkət kabakda ɵz ꞡɵrumçəꞡi olmaga ꞡɵrə çarəsi jok idi. Nə isə, mama uz ꞡɵrumçəꞡi alьb meşədi Allahverəni yşagьn janьna byrakdь.

— Hə, necəsən?— Istər-istəməz arvadьnьn əhvalьnь xəbər alьb, yşaga bakdь və əlinə ꞡɵturdu. By dəkikə meşədi Allahverənin həjatьnda ən kijmətli, ən hissli bir dəkikələrdən idi. Neçə illər ilə arьzьsьnda olan Albalanь meşədi indi əlində dytyr. By hijndə meşədi Allahverənin fiqrindən nələr qeçmədi: balaca dəmir kəşənq kravat, bir az sonra balaca araba, daha bir az sonra kyzy, eşşəq, at, fajton, daha, nə bilim: nə, nə... hamьsь bir-bir fiqrindən qeçirdi.

Haman by hijndə də mamanьn fiqrindən gejri şejlər qeçirdi. Bɵjuq mama təcribəli bir mama idi; dogrydyr, elmsiz idi, okymamьşdь, fəkət təcribəsi çok idi. 20 il idi, mamalьk edirdi. By ijirmi ilin ərzində çok balalarь ꞡɵzdən qeçirtmişdi. By yşak gejri yşaklara bir az okşamajьrdь: uzu şiş, başь kədərindən jeqə bir yşak idi və bir az da gejri bir ij verirdi...

Ꞡunlər qeçdi, ajlar qeçdi, balaca Cəbi javaş-javaş boj atьrdь; fəkət həmişə zəif, uzu qiçiq, başь isə, ꞡunbə-ꞡun zorbalaşьrdь. Nə qi, danьşmak, jeriməq vaktь dejil idi, meşədi Allahverən və arvadь yşagьn başьna və zəif olmagьna çok da dikkət etməzdilər; hətta gejrilər meşədi Allahverənə yşagьn başьna dajir bir sɵz sɵjləjəndə meşədi ꞡulə-ꞡulə dejərdi: ꞡɵrunur, agьllь olacakdyr. Hətta belə bir şej eşitmişdi və ja-inqi istəjirdi eşitsin qi, başь bɵjuq adamьn aglь da çok olar...

Nə isə, vakt jetişdi: ꞡərəq yşak iməqləsin, jerisin ꞡulsun danьşsьn, şad olsyn... Fəkət Cəbidə by əhvalatlar ꞡɵ-

ɣunməjirdi. Cəbini nərəjə kojyrdyn, orada dinməz-səjləməz yzanьrdь verəndə jejirdi, verməjəndə heç. Sy istəjəndə dodaklarьnь bir-birinə surturdu, çok vakt matdьm-matdьm bir nəktəjə balaca qəzləri ilə bakьrdь; fəkət by qəzlərdə təbii şəfək kьgьlcьm jok idi, alnь kabaga çьkьb, qəzlər çykyra duşmuşdu, umym zəifliqdən başka, ajaklarь da əjri bitirdi. Ajaklarьnь ələ alьb byrakanda sanqь bir rezin (trypka) qibi jerə duşurdu...

Nə isə, bir çok dyalardan, nəzirlərdən sonra, bir qun Qulbadam ərinə dedi: şəhərə dejirlər bir jaxşь həqim qəlibdur, qələsən, aparak yşagь bir baksьn. Meşədi əvvəl dinmədi, sonra razь oldy. Sabahь Qulbadam konşysy Pərini də qəturub həqimə qetdi.

Həqim dikkətlə yşaga bakьb başьnь byladь və xejli fiqrə qetdi. Arvatlara naxoşa dajir bir səz də deməjib, dərman jazdь; fəkət dedi qi, çok jaxşь olardь qi, yşagьn atasьnь qərməq... Arvatlar evə kajьdьb əhvalatь Allahverənə nəkl etdilər. Meşədi dedi:

— Mən əvvəl heç razь dejildim qi, siz yşagь həqimə aparasьnьz, çunqu by həqimləri mən jaxşь bilirəm, jaxşь tanьjьram. Bir az çətinə duşəndə, ja mərəzi tapmajanda naxoşyn atasьnь istərlər, anasьnь çagьrarlar, babasьnь kəbirdən çьkartmakdan da bynlar çəqinməzlər... Qər nə ahmak-ahmak səzlərdur, naxoşdyr, qəlibdur, bak, məaləcəni et; joksa sənin atasь ilə nə işin? Xejr, bynlar boş səzlərdur... Qənə dyalar, qənə cadybazlьk mejdana qəldi. Fəkət qulbadam çok da dyaja-zada inanan dejil idi. Bir azdan sonra Qulbadam yşagь daha bir təzə qəlmiş həqimə apardь. O da dikkətlə bakьb, dedi qi, atasьna bakmak lazьmdyr. By dəfə Qulbadam ərindən izinsiz qetmişdi; Qulbadam əhvalatь açьb dedi:



— Dogrydan qələsən, bir əzun həqimə qedəsən, qərəq, nə deməq istəjir. Mən səndən izinsiz təzə həqimə qetmişdim. Yşaga dikkətlə bakьb o da dedi, atasьnь qərsəq, jaxşь olardь.

Meşədi Allahverən istədi çьgьr-bagьr etsin; ancak yşak jatьrdь, bir səz də səjləmədi, sonra əz-əzunə fiqir edirdi; jaxşь həqim məni jeməjəcəqdur qi, bəlqə dogrydan da fiqir edir qi, arvat xejlagь onyn dediqlərinə lajьkьnca əməl edə bilməjəcəqlər, onyn uçun qişi xejlagь çagьrьr. By fiqir də iqən meşədi Allahverən səhəri həqimə qetdi.

Həqim yşagь qərub, bir neçə xəjallara duşmuşdu, mərəzin səbəbini bilməq istəjirdi. Çunqu haman mərəzin bir neçə səbəbi ola bilərdi. Durust səbəbini bilib mualəcəsinə qirişməq istərdi. Meşədi Allahverən həqimə əzunu tanьdьb sordy:

— Həqim başь, mənim yşagьmьn mərəzi nədur?

Həqim dedi:— Yşagьn bejnini sy alьbdyr, ajak sumuqləri də əjri bitibdur; bəncə səbəbini atasьnda və anasьnda aramak lazьmdyr və tez də mualəcəsini şury etməq qərəqdur; joksa yşak ja tez tələf olacakdyr və ja-inqi agьlsьz, çolak bir vucyd kalacakdyr. Byny da deməq lazьmdyr: mərəz agьr bir mərəzdur... Bir çok səhbətdən sonra mə'lym olyr qi, meşədi Allahverən bir vakt qift (siflis) azarьna mubtəla olybmyş, bir az sonra qenə də mə'lym olyr qi, Qylbadamьn əvvəlqi əri də by mərəzə dyçar olybmyş qi, by mərəzdən tez tələf olyr, dejirlərmiş qyja: azar bejninə vyrybmyş, sonra jazьk Qulbadamьn agzьnda bir jara varmьş və həqim: əri içdiqi davanь byna da verərmiş...

Həqim by mə'lymatlarь jьgьb mərəzin səbəbini əzu uçun aşqar etdi və mualəcəsini tədric ilə başlamak istədi. Bynynla belə meşədi Allahverənə və Qulbadama

dedi: Hər ɋah istəjirsiniz isə, belə bədbaxt balalarьnьz bir də dunjaja ɋəlməsinlər, өzunuzə mualəcə ediniz... Həqimin by sөzləri meşədi Allahverənin heç bejninə batmadь, kylagьna heç ɋirmədi. By fiqir edirdi: «Həqim boş sөzdur sөjləjir, by dogrydyr, 30 jaşьnda bərq qift azarьna mubtəla olmyşdym. Indi by ijirmi ilin ərzində bədəndə azarmь kalar?» Fəkət ony duşunməjirdi qi, iqinci arvadьnьn yşak duşurməɋinə də bynyn mərəzi səbəb olmyşdy. Indisə, iqi tərəfdən: həm Ɋulbadam və həm өzu Cəbi qibi bədbaxt bir yşagьn dunjaja ɋəlməsinə səbəb oldygyny nə-inqi duşunməjirdi, hətta həqimin sөzlərini cəfənq bir şej hesab edirdi. Daha həqim sөzu janьnda danьşmak olmajьrdь. Jenə dyalar jazьldь, nəzirlər çьkьldь... Axьrda fiqir etdi qi, yşak anadan olan vakt Ɋulbadam çok zəhmət çəqdi. Axьrda «koz agacь-pir»ə nəzr dediqdə yşakdan xьlas oldy... «Nə uçun daha otyrmyşam!...» O idi qi, meşədi Allahverən cymalar yşagь pirə aparьrdь. By cymada akşamdan pirə ɋetməq uçun hər bir şeji hazьrlamьşdьlar. Ona binaən meşədi Allahverən namazьnь kyrtarьb, Ɋulbadama dejirdi qi, yşagь dyrkyzsyn.

## II

By cyma pirə ɋedən təq bir bynlar dejil idilər çok adam ɋedir idi. Hər məhəllədən iqi-uç nəfər adam yşaklarь ilə bir jerdə arabaja, fajtona, ata, eşşəɋə minib ɋedəcəq idilər və hər birinin ɋetməɋinə də bir səbəb var idi: biri meşədi Allahverən qibi oglyny aparьrdь, diɋəri anadan olma, ja-inqi sonra tapma çaxotkalь kьzьnь janьna salmьşdь, uçuncusu vaktьnda mualəcə etməjib traxoma ɋөz agrьsьndan əbədi qor olmyş atasьnь jedəqləjirdi, dөrduncusu ərə ɋetmiş dogmajan kьzьnь janьna salmьşdь, daha bir çoky da Si-



birə ɋedən oglanlarь uçun nəzir aparьrdьlar... Nə isə, hər cyma ɋunu qar, qor, şil, çolak, çaxotkalь, jaralь, kьzdьrmalь, karnь agrьjan, evladь olmajan, oglan dogmajan, dyl arvat, dyl qişi, sonsyz, qimi arabada qimi fajtonda, qimi pijada pirə ɋedən joly tapdalajьrdьlar. Bynlarьn içində hətta elə bir arvatlar var idilər qi, ərləri pirə kojmajanda cymadan kabak jykyda ɋөrərdilər; səhər dyryb, ərinə dejərdi: rəhmətliq ananь pirin kapьsьnda dyrmyş ɋөrdum, məni ɋөrəndə dedi: «Aj balam, sənin jolyny ɋөzləjirəm; nə uçun iqi cymadyr ɋəlməjirdin». By sөzlərdən sonra əri də jymyşalьb, nəinqi ruxsət verərdi; hətta nəzir də ɋөndərərdi. Elə vakt olardь qi, qişilər өzləri də cyma ɋunləri işsiz kalьb, pirə ɋedərdilər; fəkət çok adam meşədi Allahverən qibi «muhum məsələ»ni həll etməq uçun ɋedirdi. Elə də dejil idi qi, işsiz ɋedən qişilər pirə inanmasьnlar; xejr, by şəhərdə durlu-durlu adamlar var idi; qimi meşədi Allahverən qibi səmimi-kəlbdən inanmьşdь, qimi ondan bir az; qimi nəzri, kəbyla qeçməjib, inanmasa idi də, urəɋindəqini heç qəsə deməzdi: şubhəli idi. Dogrydan da inanmamak da olmazdь; çunqu bir də eşidirsən, dejirlər: flanqəsin neçə il imiş, evladь olmajьrmьş, pirə nəzir dejibmiş... indi evladь olybdyr. Flanqəsə on beş ɋun həqim bakьbdyr, bir şej çьkmajьbdyr; elə qi, pirə nəzir çьkьblar, dərhal şəfa təri ɋəlib, jaxşь olybdyr... Flanqəs flan şejini itirmiş idi; «pirə» nəzir dedi, tapьldь... Nə bilim daha nə...nə... Fəkət il yzyny «pirə» surunən çolaklar, qorlar, qarlar, çaxotkalьlardan səs çьkmajьrdь... Nə isə, inanan inanmьşdь, inanmajan istəjirdi inansьn və bir neçəsi də өz-өzlərinə dejirdilər: Hər adamьn nəzri kəbyla qeçməz qi?! Əməli saleh adamьn nəzri kəbyl olynar; saleh olmajanьnqь olmaz.

Əməli saleh də by olqədə meşədi Allahverən qimisinə dejirdilər.

Zatən by mahalьn qişiləri, arvatlarь bir-birinə okşajьrdьlar: syrətdə jok, ryh cəhətincə bynlar bir-birindən yzak ƣetməmişdilər: bynlar oryclarьnь çok bərq-bərq dytarlar, belə bərq dytardьlar qi, toz olan jerdən qeçmirdilər, dodaklarьnь buzərdilər, byrynlarьnь jajlьgь ilə tьxardьlar; ancak agьzlarь açьlanda belə açьlardь qi, ƣərəq kylaklarьnь dytyb kaça idin; o dejil idi qi, hamь bir kajda agьzlarьnь aça idi; xejr biri çok bərq açardь əvvəl, biri bir az ondan boş... eləsi də var idi, heç agьz zad açmazdь. Dinməz-səjləməz kardaşьnьn jetimlərinə çatan pyllara hər ƣecə iftara tojyk-plav pişirib jejərdi; zavallь jetimlər isə, ac karьnlarьnь jerə surtərdilər... Sonra namaz ustə ɵz allahьna dejərdi: Pərvərdiƣara! Ɵzun şahьdsan, byjyrdygyn orycy dytyram, namazьmь kьlьram... Bynlar namazda da bir-birindən yzak ƣetməmişdilər. Intihasь biri namaz ustə çok dya edərdi, biri az; çunqu birinin az ehtijacь var idi, birinin çok; fəkət hamь bir sɵz dejərdi: Jetir pərvərdiƣara! (flan şeji) Ɵzun şahьdsan, byjyrdygyna əməl edirəm. Bynlarьn kanacaklarь ilə allahьn byjyrdygy da nə idi: oryc, namaz, zəqat, fitrə...

Fəkət bilməjirəm, allaha ruşvət verib, allahdan ruşvət istəməqi bynlara pir ɵjrətmişdi, joksa, pirə ruşvət verməq aldьklarь tərbijənin nəticəsi idi... Odyr hamь ruşvət ilə jola duşub ƣedirlər: biri kojyn aparьr, biri kyzy, biri tojyk aparьr, biri xoryz, biri kьzьl uzuq, biri ƣumuş ƣuzƣu, biri çit aparьr, biri ipəq parça, biri şam aparьr, biri şamdan, qimi pyl, qimi portman... Fəkət by nəzirlərin, by ruşvətlərin içində mə'lym və na-mə'lym nəzirlər də var. O dejil qi, hamьsь aşqar ƣetsin. Odyr: ajaklarь baglь kojyn bir janь ustə duşmuş



arabanьn dalьna sərinibdur, başь da arabanьn janьndan sallanьb, titrəjə-titrəjə araba ƣetdiƣi jolyn çykyrdelarьnь ƣɵstərir, ajaklarь baglь tojyk-xoryz da az dejil. Bynlar hamьsь aşqar nəzirlərdur; fəkət ƣizlin nəzirlər-ruşvətlər də az dejil; hətta bir arabada bir qufləttən iqi arvat ƣedirlər. Biri-birinin nəzərindən xəbərləri jokdyr. Odyr, altmьş jaşьnda meşədi Pərzad xala ƣəlini Ƣulzar ilə bir arabada jan-bə-jan otyryblar. Bynlarь Dəmirkaja ƣɵndərir qi, pirdə şam jandьrsьnlar, ta-inqi ƣələn il by vakt Ƣulzar bir oglan dogsyn. Pərzad karь oglynyn ustə dyrybdyr qi, iqinci arvat alsьn; çunqu nəvə ƣɵrməmiş ɵlməq istəməjir... Hər ƣun açьk-açьgьna ƣəlininə dejir: Anam, uç ildur, oglyma ƣəlibsən, bir şej jokdyr, ƣɵrunur dogan dejilsən, koj oglym arvat alsьn; nə uçun bədbaxt edirsən? Ƣundə by barədə evdə dava kalmagaldyr! Indi nəzir aparьrlar, şam jandьracaklar. Fəkət biçarə Pərzad nənənin bir də bir ƣizlin nəzirdən xəbəri jokdyr. Ƣulzar bir balaca əsƣijə dujumlənmiş kьzьl uzuƣu dɵşunə atьbdyr. Byny pirə aparьr qi, koca Pərzad tez ɵlsun. Bəlqə Dəmirkaja da anasьnьn sɵzlərinə syjylyb, arvat almasьn... Nə isə, by tak-tak ilə ƣedən arabalarda, by çaparak ƣedən fajtonlarda, by başlarьnda çarşaf, başlarьnda papaklьlarda çok sirlər var... by sir sahьblarь, sir dagarcьklarь javaş-javaş pirə javьklaşьrlar, fajton fajtony qeçir, araba arabanь, atlь atlьnь, pijada pijadanь. Birbirinə karьşьb bir jol dytyb ƣedirlər. Fajton ilə ƣedən fiqir edir: tez ƣedəriq, jaxşь jer dytarьk, araba ilə ƣedən fiqir edir: ejbi jokdyr, zəhməti çokdyr, savabь da çok olar; pijada ƣedən ɵzunə təsəlli verib dejir: pirə pijada ƣərəq ƣedəsən.. Nə isə hərə ɵz kanacagь ilə bir nɵktəjə jeriş edirlər... toz-toprak, işti ƣɵzə ƣɵrunməjir. Hamь istəjir, tez ɵzunu pirə jetirsin, hamь tələsir... Ƣi-

16590
AZƏRBAYCAN MƏRKƏZİ DÖVLƏT QUTUBXANASI

mi tez şəfa tapmaga jeriş edir, qimi bir-birinin acьgьna at çarьr, qimi dalda kalmьş eşşəqini bizləjir...

III

Hamьdan tez meşədi Allahverənin fajtony pirə jetişdi. Meşədi Allahverən fajtondan duşub balasьnь kycagьna aldь, by vakt pirin adamlarь pişiq sьçana marьtlajan qibi pirə qələnləri səhərdən marьtlajьrdьlar və nə uçun də marьtlamasьnlar: by qun bynlarьn bajramьdyr. Qiminin cibinə pyl qirəcəq, qiminin qasasь jaglanacakdyr, qiminin qisəsinə duju dolacakdyr. Odyr, meşədi Allahverənə istər-istəməz qəzləri fajtonda olan şejlərə bakarak: «Xoş qəlibsiniz, allah kəbyl eləsin» dejib karьnca qimi fajtona daraşdьlar... Meşədi Allahverən bynlarьn xasijjətlərini jaxşь bilirdi, ona qərə şejlərin hamьsьnь bircə adama tapşьrьrdь, gejriləri qənara çəqildilər... Meşədi Allahverən və Qulibadam darvazadan qirib, bir agacьn altьnda palaz saldьrtdьlar bynlar javaş-javaş jerləşməqdə iqən, gejriləri də bir-bir, iqi-bir qəlirdilər.

Pirin mollasь, kara naziq xət, bojny albyxara torbasьna okşajan, orta boj, kojyn-qəz, kara abalь molla Cəfərkyly hamь ilə salamlaşьrdi, hamьja «Xoş qəlibsiniz, allah kəbyl eləsin!» səzlərini dejirdi və konaklara jer qəstərirdi; molla Cəfərkyly rəhmli adam idi. By, nə-inqi adamlara və hətta hejvanlar uçun də jer duzəltmişdi, baglь-bagçalь, iqi mərtəbə evin dal tərəfində yzyn bir saraj tiqmişdi; hejvanlarь orada baglajьb, hər qəs arpa-samanьnь hejvanьnьn kabagьna təqərdi; həjət isə, qəzəl bir jer idi; alt mərtəbə tamam konaklar uçun otaklar idi, ust mərtəbədə əzu olardь. Fəkət konak çok olanda jykarь da byrakardь; çok lazьm da olmajьrdь.



Çunqu həjətində bəjuq qəlqəli agaçlar var idi... Fəkət bir az jaglь konak olanda molla Cəfərkyly dejirdi: dunəndən sizin uçun flan otagь hazьrlatmьşam... Jaglь da byrada, jagь və jag qimi şejləri artьk qətirən adamlara dejərdilər; məsələn: bir pişirim plava bir qirvənqə jag lazьm isə, uç dərt qirvənqə jag qətirən daha kalanьnь qeri aparmazdь, duju də və gejri şejlər də bynyn qimi; çunqu adət belə idi: artьk kalan şeji pirdən aparmak olmazdь; hər nə kaldь pirin malь hesab olynardь; byda molla Cəfərkylynyn zəhmətini artьrьrdь: dogrydan molla Cəfərkyly konaklarьndan sonra çok zəhmət çəqərdi: tər-təquntu jьgьb, jer-bə-jer etməq çətin bir məsələ idi... Bir by iş olsa, jaxşь. Molla Cəfərkylynyn konaklardan sonra qənə bir işi var idi: akşam hamь çəqiləndən sonra qərəq pirə bir baş çəqə idi: qeçmiş şamlarь jer-bə-jer, nəzirləri zijarət edərdi; çunqu qecə qim, bilsin, bir də qərdun, qunahqarьn biri pirə əl yzatdь... həkikət pir açьklьk bir jerdə idi, iqi balaca qəntlərin arasьnda zorba koz agacьnьn altьnda bir balaca qumbəz qibi şejdən ibarət bir jer idi. Əslindən by iqi balaca qənt bir-birinə o kədər javьk idi qi, bynlara bir qənt də deməq olardь və hər qəndə bir qəndin bəjuq məhəlləsi deməq olardь; nə isə, by məhəllələr kədimdən ajrь qənt hesab olynyrdy. Birinin adь Z... qəndi o birininqi I... qəndi idi. By iqi qəndin, daha dogrysy by iqi məhəllənin arasьndan bircə jol var idi, qediş-qəliş, at, araba by jol ilə olardь. By jolda, jə'ni Z... qəndinə javьk bir bəjuq koz agacь var idi. Pir də haman by koz agacьnьn dibində idi. Zatən pir olmamьşdan da by koz agacь jajьn istisində adamlarь əz tərəfinə çəqərdi. Bynyn bəjuq bydaklarь, bydaklarьn enli japraklarь agacьn altьna qenişli bir qəlqə salьb da, həm insanlar və

həm hejvanlar uçun qunun istisində sərin, jorynyk məqanь və şiddətli jagmьrda zorba bir qunluq olmyşdy...

Indisə, by koz agacь nə-inqi kьrak qəntlərdə və hətta şəhərlərdə də şəhrət kazanmьşdь. Bөjuq bir zijarətqah olmyşdy... Xalk hər cyma qəlib molla Cəfərkylynyn bagçasьnda jejərdilər, içərdilər, kyrbanlarьnь qəsərdilər; sonra qişilər bir dəstə, arvatlar da bir dəstə ilə pirə qedərdilər. Hərə oz nəzrini muəjjən bir deşiqdən salardь urəjindən nə qeçirəcəq, qeçirərdi: ja pirin qumbəzindən өpərdi və ja-inqi өpməzdi. By çok da vacib dejil idi, өpən də olyrdy, өpməjən də. Fəkət koz agacьnьn dibindən topragь qөturub yşaklarьn alьnlarьna surtməq vacib qibi bir şej idi; qyja arvatlar dejərdilər: yşaga qөz dəjməz... Vaktiqi xusysi zijarət tamam oldy, hər qəs nə diləməlisə, dilədi, nə ruşvət verməlisə, verdi; molla Cəfərkyly qəlib pirin qəramətlərindən sөjlərdi, arvatlar bir tərəfdən, qişilər o biri tərəfdən dyryb, molla Cəfərkyly da arada sөzunu dejərdi. Molla Cəfərkyly artьk dərəcədə dilli adam idi, jə'ni natik idi, danьşanda hamьnьn fiqrini cəlb edərdi və həmişə də zijarətə qələnlərə nitk sөjlərdi və nitkini də başlajanda bir az mə'nalь, tə'sirli olsyn dejə, «Ja ejjuhənnas» sөzləri ilə başlardь; indi də by sөzlərilə başlajьb dedi: Eşidirəm, dejirlər şəhərdə və bir neçə qəntlərdə xalk vəba naxoşlygyndan korkyb, daga-daşa kaçmak istəjir; məbadə belə şejlər edəsiniz, vəba allahьn əzabьdyr və allah təala өz əzabьnь əməli saleh olmajanlar uçun həmişə qөndərər. Siz qi, şuqur allaha əməli saleh adamsьnьz namazьnьzь kььrsьnьz, orycynyzy dytyrsynyz və həmişə pirə qələnlərdənsiniz, nə uçun korkyrsynyz? Qeçən il vəba naxoşlygyna mubtəla olmyş bir adamь T... qəndindən byra qətirmişdilər, dərhal bir qasa syjyn içinə by pirin topragьndan salьb ver-



dim, içdi, həmin saat şəfa tapdь. Indi nə uçun korkyrsynyz? Allah azar verib, dərmanьnь da jaradьbdyr. Fəkət əməli saleh adamlar uçun... Molla by səzləri hala kyrtarmamьş, xalk bəjuq-qiçiq jerə təquldulər, qah ciblərinə, qah dəsmallara toprakdan təqurdulər, dəsmal jerinə çarşaf işlədən arvatlar çarşaflarьnьn bir qunçunə toprakdan qəturub dujum edirdilər. Balaca yşaklar da bəjuqlərə bakьb, toprakdan dəşururdulər... By əhvalat meşədi Allahverəni tərənnumə qətirib, yca səslə dedi: Həzərat, bəndə, qələn ilə qibi by pirin hasarьnь çəqməqə və hasarьn içində dam-daş tiqməqə səz verirəm. Meşədini, by səzlərdən sonra, hər tərəfdən alkьşladьlar: «Çok sag ol, meşədi! Çok sag ol! Allah kəbyl etsın! Inşaallah da kəbyla qeçər» sədasь eşidilirdi. Meşədi Allahverənin by səzlərindən sonra camaat dagьldь. Axşam araja qəlirdi. Pijada zijarətə qələnlər jola duşdulər. Sonra atlьlar. Fajtonda, arabada qələnlər də evlərinə kajьtdьlar. Qənə bir-birini kova-kova jolyn tozyny kaldьrьrdьlar.. Hamь şad, xurrəm evinə kajьdьrdь. Uzdə şadlьk qərunurdusə də, fəkət bir neçəsinin uzundən punhan fiqrini də bilməq olradь. Bir çokunyn fiqri by idi qi, qərəq nəzrimiz haçan kəbyla qeçəçəqdur. Bir çoky da nəzrini kəbyla qeçmiş qərur idi: Dəmirkajanьn arvadь Qulzar kajnanasь Pərzad ilə bir arabada qəlirdilər, Qulzar Pərzada bakьb qəzlərini çok qiçiq qərurdu. Rənqi də saralmьş nəzərə qəlirdi. Qulzar urəqdə fiqir edirdi: Hə! nəzrim kəbyla qeçibdur! Ancak ej pir! bir az səbr elə, qedib evimizə çatak: joksa jolda kocanьn, canь çьkar, əlimiz də heç jerə çatmaz...

Meşədi Allahverən də fiqirsiz dejil idi: by da hərdən bir oglyna bakьb dindirərdi:

— Hə, oglym, kaka istəjirsənmi? Qedəq şəhərə, sənə jaxşь at alacagam, eşşəq alaram, hə, bala, oglym! At



çok istəjirsən, ja eşşəq? Balaca, dərt jaşьnda Cəbi, atasьna mat-mat bakardь, bir səz də səjləməzdi. Meşədi kəsdən danьşdьrьrdь.. Hər qah mumqun olsa idi; hala ajagь ustə kojardь, qərsun bəlqə qəzə bilir, çunqu zarafat dejil pirin hasarь və damdaş azьndan iqi minə dəq xarc istəjirdi... Qulbadamьn da əzunə qərə fiqri var idi. Byny da boktoryn səzləri rahat kojmajьrdь. Doktor da demişdi: qərəq mualəcə olyna, qərəq atasьna, anasьna da mualəcə olyna qi, qələcəqdə belə bir bədbaxt dunjaja qəlməjə... By səzlər Qulbadamьn başьnda hərdən bir fьrlanьb əvvəlinci ərinin halьnь və əz agzьnьn jarasьnь fiqrinə qətirərdi. Fəkət uçuncu səbəbdən, jə'ni indiqi ərinin əhvalьndan xəbəri jok idi. Doktor bynda da qəhnəlmiş sifilis tapmьşdь... Qulbadam pirə nə-inqi inanmazdь, hətta pirin adь qələndə əhvalь busbutun təgjir tapardь... Meşədinin də hərdən bir urəqi sьkьlardь... Urəqi sьkьlardь. Onyn da başьna hərdən bir kara fiqirlər qəldi: bəlqə balama pirdən əlac olmadь? Fəkət tez «lə'nət şejtana!» dejib belə fiqirləri əzundən rədd edərdi. Belə bir karьşьk fiqirlərdə bir meşədi dejil idi. Gejriləri də hərdən bir xəjala duşur, tez «lə'nət şejtana!» dejərdilər. Hətta bir neçə cavan oglan, bir neçə dyl qişi, bir neçə dyl arvat, əzqə xəjallar ilə pirə qetmişdilər... Fəkət molla Cəfərkylydan pirin qəramətləri barəsində səzləri eşidib, bynlar da «lə'nət şejtana» dejirdilər... Nə isə, fiqirlər, sirlər çok idi, bir əzləri bilirdilər, bir də bir molla Cəfərkyly... Molla Cəfərkyly dogrydan da bynlarьn çok fiqirlərini, sirlərini bilərdi. Molla Cəfərkyly agьllь bir adam idi. Elmi-ryhdan başь çьkardь, dogrydyr, Racidən başka qitab qərməmişdisə də, fəkət təcribəsi çok idi. Elmi-ryh da təcribəjə baglь bir elmdur. Bilirdi: hejvan ona qərə hejvandyr qi, nərəjə çəqərsən, qedər; bilirdi qi, hejvana bir jem lazьmdyr... Bilirdi qi, jem verə-verə ən bə-

juq zorba jırtıcı hejvanları ələ qətirməq olar... Molla Cəfərkyly dogrydan da dunja qərmuş adam idi, hər şejdən başı çıkardı: bynyn əsli Iranlı idi. Əvvəllər qənt-bə-qənt qəzib, kafkazlılara mejmin ojnadardı, sonra bynyn əziz mejmini əldu. By vakt məhərrəmliq araja qəldi, başına bir sarık sarıjıb Z... qəndinə qəldi, mən mərsijəxanam dedi. Z... qəndinin xalkı uçun by qəjdən duşmuş qibi oldy. Tamam məhərrəmi həm qişilərə və həm arvatlara mərsijə okyjardı. Dogrydan da jaxşı mərsijəxan idi: səz az bilir idisə də, səsi jaxşı idi. Tez-tez zənqylə vyrardı. Kızışanda əzunu dəjərdi, qəmləqinin jakasını cırardı... By əhvalatı qərub xalk da kızışardı. Jə'ni «meclis jaxşı qeçərdi»... Bir az zamanda molla Cəfərkyly gejri qəntlərdə də məşhyr oldy; byny tə'rif edirdilər və dejirdilər: bynyn zənqyləsinə heç zənqylə çatmaz... Tamam kırk qun mərsijə okyjyb, jaxşı pyl jıgdı. Sonra mollalık edərdi, dya jazardı, fala bakardı. Hətta sonralar həqimliq də edərdi; axırda jerini isti qərub Z... qəndindən bir arvat aldı, by arvatdan bir ogly oldy, adı Hejdarkyly. Elə də dejil idi qi, molla Cəfərkylynyn təq bir ogly ola, xejr, Iranda bynyn bir arvadı, uç balaca kızı var idi. «Iranda mejmin ojnadan çok olmaga» qərə bynyn sənəti orada işə qeçməjir idi. Yşaklarını atıb Kafkaza qəlmişdi. Eşitmişdi qi, Kafkazda «mejmin ojnadanlar» jaxşı pyl kazanırlar; eşitmişdi qi flan kymarbaz, flan dəlləq, flan cibqəsən, flan loty, daha nə bilim, flan, flanlar..... qeçən məhərrəmliqdə Kafkazdan 5 juz, min, 2 min manat pyl qətiriblər və hətta eşitmişdi qi Racidən syvaj by «flanlar» uçun təzə qitablar mejdana qəlir və by qitabları nəşr etməq uçun xusysi mətbəələr vardyr... molla Cəfərkyly da əzunə bakıb fiqir edərdi: mənim biliqim «flan»ın biliqindən az dejil! Nə uçun mən otyrmyşam? Nə uçun mən Kafkazlılara biliqimi qəstər-



məjirəm? Molla Cəfərkyly dogrydan da biliqini qəstərdi və kafkazlılar da onyn biliqinə və zənqyləsinə kijmət verdilər; indi molla iqi mərtəbə mulq sahıbı və qəndin ən nufyzly adamlarından hesab olynyr. Elə də insafsız adam dejil qi, Irandakı yşaklarını jada salmasın. Xejr, hərdən bir fiqrinə duşərdi qi, qagız jazsın, əhval soryşsyn, fəkət şuglunun çoklygyndan qagız jazmazdı, ynydardı. Həkikət meşədi Cəfərkylynyn işi çok idi. Indi odyr, pirə qələn konaklardan sonra həjəti qərəq təmizlətsin, kalan jagı, dujunu, əti, qəmuru, odyny... jer-bə-jer etsin. Ondan sonra pirin qizlin balaca kapısını qərəqdur açıb nəzirlərə «baş çəqsin»... By cyma da molla Cəfərkyly konaklarını jola salıb, axşam vaktı sakkalını tymarlaja-tymarlaja bir tərəfdə «xusysi zijarət» uçun qedirdi...

## IV

Pirdən qələnlər də indi evlərinə çatıb jorynyk alırlar. Meşədi Allahverən də evində otyryb, axşam çajı içirdi və hər dən bir qedib, oglyna bakırdı, qərsun pirdən sonra əhvalı nəcədur...

Qecə araja qəldi. Qulbadam əzunə, ərinə yşagına jer kajırıb jatdı, Meşədi Allahverən də yzandı, jatsın; fəkət jata bilmədi: pirə qetməqlərini, molla Cəfərkylynyn nitkini və pirin qəramətlərini başından qeçirirdi və hər dən bir «çok şuqur, pərvərdiqara!» dejib balasının halına janardı «Çok şuqur pərvərdiqara!» dejirdisə də, balasının dərdinə dərman pirdən qəzlərdi...

«Şuqur sənə pərvərdiqara!», ja «çok şuqur pərvərdiqara!» səzlərinə o kədər agzı əjrənmişdi qi, by səzləri jersiz də işlədir idi, bir şejə dikkət edib də, haman şejin varlıgını, allahın kudrətindən bilsin, duşunsun, sonra şuqurlər etsin... Xejr, belə dejil idi... «Hər şeji allah jara-

dьbdyr» sөzlərini tyty kyşy qibi təqrar edərdi. Fəkət butun vucydy ilə byny duşunməz idi. Heç olmaz isə, bədəninə dikkət edib, dəkikədə jetmiş beş dəfə tьk-tьk edən urəqinin dөjunməsini eşidə idi! Və by urəqinin dajanmagь butun bədənin heç bir şejə jaramadьgьna səbəb olmagьnь duşunsə idi! Jok, by meşədi Allahverən uçun çətin bir məsələ idi. Lamahala bagçasьnda bitən qullərin, agaçlarьn həjatьna bir fiqir verə idi: japraklar saralьr, tөqulur, qənə jaşьl japraklarь ilə agaçlar bəzənir, çiçəq açьr, çiçəqlər tөqulub kьrmьzь almalar agaçlardan sallanьr. Byna da dikkət edib, by həjatda da qundə juz dəfə şuqur etdiqi pərvərdiqarьn kuvvətini, kudrətini hiss edə bilməjirdi. Nə olardь, balasьna olan məhəbbətini təhlil edə idi! Bəlqə by məhəbbətdə allahьnь hiss edə idi, bir az fiqir edə idi qi, dөrt jaşьnda bir bөjru ustə duşmuş dilsiz ajagsьz bir vucyda bagladьgь məhəbbət hissi nərədən qəlib byny tapdь? By məhəbbətin təbii olmagьnь duşunsə idi, allah ilə өz arasьnda olan rabitəni də hiss edərdi. Byny duşunməq, meşədi Allahverən uçun mumqun dejil idi. Jə'ni durustunu deməq, meşədi Allahverəndə də qunah jok idi? Zavallьja qөzu açьlandan, bejni işləjəndən indijə dəq by naziq mətləbi duşundurən olmamьşdь; eşitmişdi qi, pejgənbər, imam qəlib, qediblər; fəkət bynlarь qim və nədən өrtu qөndərmişdi, by məsələ meşədi Allahverən uçun karanlьk kalmьşdь... Qөrduqu, eşitdiqi axynd, molla... Bynlar da zavallьnь allahьndan qənar salmьşdьlar: flan şeji etsən, allah səni jandьrar, flan əməl səndən uz verərsə, o dunjada allah sənə flan əzijjəti edər; daha nə... nə... Daha duşunməjirdilər qi, korkytdykca jazьk meşədi Allahverən өz allahьndan qənardyr, rabitə pozylyrdy... Meşədi Allahverən korkydan syvaj bir şej bilməjirdi, saldatdan, karadavojdan korky çəqirdi, insan tөrətdiqi kanynlardan korky çəqirdi. Al-



lah qөndərdiqi kanynlardan korkardь, daha duşunməjir idilər qi, korky mə'byda javьklaşdьrmaz, yzak salar... Nə olardь qi, byna dejərdilər allah adildur, hamьja bir qөzlə bakar, allah mehribandyr—hamьnь sevər, bəslər... Xejr: meşədi Allahverənə allahьnь oryc-namazь ilə tanьtmьşdьlar; fəkət deməmişdilər qi, allahь tanьmasan, namaz orycyn da heç. Əvvəl desə idilər, çalьş, allahьn sifətlərini bil, adil, mehriban ol, hamьnь sev. O vakt allahьna javьklaşarsan, javьklaşьb da ona məhəbbət baglarsan, by məhəbbət səni namaz kьlmaga, oryc dytmaga, gejri jaxşь əməllər etməqə də vadar edər... Duşunmədilər qi, kanyn ilə korky ilə, durlu-durlu «və'dələr ilə» həkiki məhəbbət mejdana qəlməz... Həkiki məhəbbət uçun qөrməq, duşunməq, hiss etməq lazьm qəlir idi, by da mumqun idi: qundə min dəfə hər addьmьnda meşədi istərsə idi, həkiki allahьnь qөrərdi, duşunərdi və hiss edərdi; daha lazьm dejil idi dejilə: namaz kьl, өzu kьlacak idi; sevdiqi həkiki məhəbbət bagladьgь mə'byda өzu səcdə edəcəq idi... Ona javьklaşmaga çalьşacak idi... Namaz vaktьnda daha ruşvət verməzdi, ruşvət istəməzdi; fəkət byny dejərdi: Pərvərdiqara səni bilməq, duşunməq uçun asan və duz jol qөstər!

Biçarə meşədi Allahverən yşaklьkdan qөz açьb, duz joly mərsijəxanlardan өjrənmişdi, bөjujəndə də qənə mərsijəxanlardan və qənə mərsijəxan qimlərindən... Bynlar isə həmişə dejərdilər: flan əməl edərsənsə, flan dyanь kьrk dəfə okyjarsansa, alah təala sənə flan şej verəcəqdur... Yşaklьkdan by sөzləri eşidən butun tərbijəsinin binevrəsini by sөzlərilə tiqilən bir vucyd muəjjən mukəddəs bir mə'byda secdə edə bilərdimi? Belə bir tərbijədən sonra nə uçun də molla Cəfərkylynyn «pir»inə pənah aparmaja idi. Həkiki allah, həkiki məhəbbət baglamьş olsa idi, pirə, ja pir qibi şejlərə secdə edərdimi?

Həkiki allahьnь tapmьş olsa idi, jəkin qi, onyn kudrətilə mejdana qələn elmin kədru-kijmətini bilərdi və bilib də bədbaxt oglyny, өzunu və arvadьnь mualəcəsiz kojmazdь...

Nə isə, Meşədi Allahverən qənə axьrьncь dəfə «pir»in qəramətlərini fiqrindən qeçirib, jykyja qetdi... namaz vaktьna bir az kalmьşdь, meşədi Allahverən jerindən diq atьldь: yşagь jatan tərəfə bakьb qөrdu qi, Cəbi jatьr, o jan-by jana bojlandь, qənə şuqurlər etdi, sonra tələsiq Qulbadam səslədi:

—Aj kьz, Qulbadam! Qulbadam!

Qulbadam ojanьb, elə fiqir etdi qi, yşak aglajьr, qөrdu, jok, yşak jatьr, fəkət əri başьnda arakçьn bir qөmləqdə jerində otyryb, dejir: Aj kьz, mən jykydan sərsəm dyrdym, bir jyky qөrdum...

—Allah xejir eləsin!—Qulbadam dejib, kylak asdь.

—Qөrdum: Cəbini bir qun, bir qecə pirə kojmyşyk, sonra qөrurəm pirin divarь jarьldь: yşagьm jujurə-jujurə ustumə duşdu və dedi:—Atam şəfa tapdьm! Mən də kycaklajьb өpurdum qi, ojandьm... Qulbadam başьnь aşagь salьb:—Allah xejir eləsin!—dedi və başьnь tez balьşa atdь. Meşədi Allahverən dedi: —Arvat! Nə jatmak vaktьdyr? Bilirsənmi by jyky nə jykydyr Qulbadam:—«A qişi jykym qəlir, koj jatak» dejib daha səjləmədi, fəkət jatmadь da. Meşədi Allahverən bir az o jan-by jana bakьb yzandь, jatdь. Qulbadam isə, uzunu meşədidən çөndərib qөzlərini jymdy, jykyja qedə bilmədi. Meşədinin jykysy Qulbadamьn tam'am mazisini qөz kabagьna qətirdi.

## V

Qulbadam!.... qəndində anadan olmyşdy. Yşaklьkda çiçəq mərəzinə mubtəla olmagь uzundən mə'lym edirdi; fəkət naziq çopyr idi. Yzakdan çopyrlygy nə inqi mə'lym etməzdi, hətta bir az da uzunu qөzəl qөstərirdi. Qulbadamьn çopyry dərin olsajdь da uzunu ejibli etməzdi; çunqu onyn bөjuq, ala, yzyn qipriqli qөzləri uzundə tamam ejibini өrturdu. Dogrydan da by qөzlərdə gejri bir hissi-məlahət var idi! Yzyn boj, ag bəniz, ala qөz, Qulbadamь kьz iqən, qəntdə çok adamlar istərdilər. Fəkət anasь tələsməzdi. Qulbadam on jaşьnda iqən atasь өldu. Anasь, Nənəcanьn tərbijəsində kaldь. Nənəcan mamalьk edib kьzьnь saklardь və jaxşь da saklardь. Kьzьnь artьk dərəcədə sevərdi; başьna dolanardь və mumqun olan kədər çalьşardь qi, kьzь atasьnьn joklygyny hiss etməsin. Nənəcan agьllь, iş sevən, zəhmətqeş, mehriban, gejrətli bir arvat idi; əri өləndən sonra mamalьkdan başka, ona-byna iş də tiqərdi. Işdən, zəhmətdən korkmazdь. Bir karьndan өtru ərə qetməqdən, dyl jaşamagь əfzəl bilirdi. Əri өləndən sonra çok adamlar istədi, qetmədi və nə uçun də istəməjə idilər: bir qişicə pyl kazanьr idi. Arvat pyly ilə arvat zəhmətilə jaşamak istəjən qişilər də az dejil idi. Fəkət Nənəcan kьzьnь çok istərdi: bilirdi qi, ərə qetsə, kьzьnьn qunu olmajacakdyr... Və bir də Nənəcan vəfalь arvat idi, jaxşь ərdən sonra qetməqi өzunə ejib bilirdi. Daha dogrysy—Nənəcanьn өzunə qөrə fəlsəfəsi var idi, fiqir edirdi: ərə qetməq borcdyr isə, qetdiqim borcy verdim. Arvatlar dolanacaklarь qeçməqdən өtru ərə qedirlər isə, mənim ona ehtijacьm jokdyr. Өzum kazanьb өzum də jejirəm. Qişinin jaxşьsь da var, jamanь da; bəlqə bir jaman adama rast qəldim. Jok, jaxşьsь bydyr qi, өz əlim, өz başьmda təq bir kьzьm uçun qərəqdur işləjim, ony xoşbaxt edim. Sonra өlsəm də, arxajьn өlərəm... Qəntdə tərbijə tapmьş elmsiz bir arvatdan belə bir fəlsəfəni qөzləməq çətin qөrunsə də, fəkət tapьlьrdь. By hala heç; Qulbadam hərdən bir qəlib dejərdi: anacan

mən flan jerdən qeçirdim, jel vyryb çarşafьmь açdь; flanqəs də qeçirdi, məni ƣɵrdu; «Ejbi jokdyr kьzьm!» dejib Nənəcan kьzьnь saqit edərdi: «Adamь ƣɵrəndə jeməzlər. Sən çalьş qi, adьna bir sɵz deməsinlər... joksa, ƣɵrdulər ƣɵrmədilər, boş sɵzlərdur. Mən, kьzьm çokdan bəri mamalьk edirəm, məni çok adam da ƣɵrubdur və ƣɵrur; mən ƣecələr jad qişilər ilə agrь çəqən arvat ustə təq ƣedirəm. Fəkət by vakta dəq bir adamьn hunəri varmь, mənim adьma bir pis sɵz desin...». Nəkikət Nənəcan artьk dərəcədə namьslь və hajalь bir arvat idi: ona ƣɵrə də tamam qəntdə ony jaxşь arvat bilərdilər və hɵrmətini saklardьlar.

By minval Nənəcan kьzьnь bɵjudub, 18 jaşьnda ərə verdi. Ƣulbadamьn əvvəlqi əri molla Cəfərkylynyn kardaşь meşədi Həsənəli idi. Meşədi Həsənəli kardaşьnьn dəstƣahьnь eşidib, Irandan Kafkaza ƣəlmişdi. O vakt molla Cəfərkyly hala mollalьk, mərsijəxanlьk edərdi. Indiqi oldygy jerdə bir balaca da evi var idi. Kardaşьna da bir balaca bakkal duqanь açmьşdь; duqanьn majasь da molla Cəfərkylynyn idi. Çunqu ɵzu savadsьz olmaga ƣɵrə əlindən ɵzƣə bir şej ƣəlməjirdi. Dogrysyny deməq, Həsənəli Kafkaza ƣələndə bir az səhv etmişdi; elə bilirdi qi, Kafkazlьlar savadsьz adamdyr, ələ sala bilər; ƣəldi, ƣɵrdu, xejr, elə dejil: lamhala ƣərəq, Racinisə də, okymak bilsin. Nə isə, kardaşьnьn adьna, sanьna da, lajьk dejildi qi, mejmin ojnatsьn, naçarlьkdan molla Cəfərkyly byna bir duqan açdь və duqan da jaxşь işləməƣə başladь... Axьrda bir az ɵzunu duzəldəndən sonra Ƣulbadamь istədi, çok istədi, anasь verməd. Çok istəməjinin də səbəbi var idi. Bilirdi qi, ananьn təq kьzьdyr və anadan sonra bir az «pyl-myl» da kalacakdyr. Həttə by işin xatirəsi uçun mə'minlər cərƣəsinə daxil olmak fiqrində iqən, bir az pyl duzəldib, Xorasana ƣetdi. Xorasandan kajь-



landan sonra bejuq vasitələr salьb bir «ƣuc bələ iiə» Ƣulbadamь aldь.

Iqi il Ƣulbadam ilə ɵmrunu surub ɵldu dejirdilər, ƣyja Xorasandan azarlь ƣəlmişdi. Orada ƣyja qift azarь tapmьş imiş. Dogrydan Xorasana ƣetməmiş bojny albyxara torbasьna oxşar, canlь yca bojly, kojyn ƣɵz byrny bir az jeqə qişi idi: ɵzunun də otyz jaşь olardь. Nə isə, Həsənəli meşədi Həsənəli olandan sonra, ƣah jara çьkarardь, ƣah byrnyndan şiqajət edərdi. Ƣah ƣecələr ajaklarьnьn agrьsьndan, sumuqlərinin sьzьltьsьndan jata bilməzdi. Axьrda byrnynda jara əmələ ƣəldi və byrny ortadan çɵqəldi. Sonralar Ƣulbadamьn da agzьnda bir jara pejda oldy nə jara isə bilinməjirdi. Fəkət şəhərdəqi həqim onyn dərmanьndan byna da verərdi... Çok çəqmədi: meşədi Həsənəli jaman bir dərdlə canьnь tapşьrdь. Bir il ondan mukəddəm Ƣulbadamьn anasь dunjadan ƣetmişdi. Ƣulbadam ərindən sonra bir aj kajnь molla Cəfərkylynyn evində kalьb, koca əmisinin evinə qɵçdu və belə tez qɵçməjinə də səbəb var idi. Bir ƣun Ƣulbadamьn əmisi naxoşlajьb, molla Cəfərkylyny çagьrtdь qi, mualəcə etsin; koca qişi bir az artьk jejib zərərini ƣɵrmuşdu: bir az kysyrdy... Ƣun batan vaktь molla Cəfərkyly əminin janьna ƣetməq istədi. Ƣulbadam da təvəkki etdi qi, byny da aparsьn, əmisinə lazьm olyrsa kyllyk etsin... Xulasə iqisi də jola duşdulər. Bynlar ƣəlməqdə, əminin də mərəzi bitməqdə. Xoş beş edib otyrdylar sonra çaj içib, evə kajьtdьlar...

Əmisi M... qəndində olmaga ƣɵrə jollarь koz agacьnьn janьnda idi. Molla Cəfərkyly ƣecə vaktь həmişə cibində şam və spişka ƣəzdirərdi. Fəkət lazьm dejil idi. Çunqu jol mə'lym, duz bir jol idi. Bynlar javaş-javaş ƣəlirdilər. Koz agacьna çatanda molla Cəfərkyly jalandan budrəjib jьkьldь, urəƣi təmiz, rəhmli Ƣulbadam vaj

ədib, bynyn kolyndan dytdy. Molla Cəfərkyly kьzьşmьş hejvan qibi Qulbadamьn bojnyndan sarьlьb əpdu və dedi: Mən sənin dərdindən əluram... Qulbadam əzunu itirib, yca dəhşətli bir səslə «Vaj» edib, gəşş etdi, molla Cəfərkyly bir dəkikəliq əzunu itirib, Qulbadamdan bir neçə addьm qeri çəqildi. Əz kəza Qulbadamьn səsini qəndin qənarьndan qeçərqən, bir adam eşidib səslənər: Aj adam qimsən. Molla Cəfərkyly qərur qi, haman səslənən adam karanlьkda koz agacьna tərəf hərəqət edir. Molla Cəfərkyly ətəjinin altьnda tez şamь jandьrьb, koz agacьnьn dibinə kojdy və başladь namaz kьlmaga. By adam çoban Dunjamalь idi, javьklaşьb, qərdu qi, bir arvat jerə sərilmiş hərəqətsiz yzanьbdyr; molla Cəfərkyly isə, namaz kьlьr, şam da kibləsidur... Çoban nə olybdyr, dejə sordy. Molla Cəfərkyly namaz ustundə cavab verməjib kyrtarandan sonra aglamaga başladь və dedi: tə'zim-tə'zim et kardaş, by pirdur. Biz jol ilə qedirdiq, qərduq byrada şam janьr. Agaca javьklaşanda agaçdan səs çьkdь. By zavallь arvat tab qətirə bilməjib, gəşş etdi...

Çoban byny eşitcəq dizləri ustə çəqub jeri əpdu. Agladь «Atam-anam sənə kyrban!» dejib alnьnь topraga kojdy və sonra ajaga dyryb dedi: Qedim by saat, adamlara dejim, zijarətə qəlsinlər. Molla Cəfərkyly dedi: Jok, pir tapьlanda kajda bynadyr qi, əvvəl piri tapan adam əzu qərəqdur, camaatь jьgьb nəkl edə, gejri bir adam xəbər verər isə pir jok olar... Indi sən qet əzun də dalьna bakmajasan, evdə danьşa bilərsən, ancak pirin barəsində bir səz də səjləməzsən; sabah bynyn dyasьnь okyjyb e'lan edəcəqəm... Çoban tez dyryb, qetdi və molla dediqinə də əməl etdi. Çoban bir kədər qetmişdi, Qulbadam javaş-javaş ajьlьb başьnьn ustə molla Cəfərkylyny qərdu. Tamam bədəni iztirabda iqən, agladь... Molla Cəfərkyly bynyn ajaklarьna duşub jalvardь və çobanьn



əhvalatьnь nəkl etdi və dedi: Aramьzda olan əhvalat açьlmasьn dejə mən byranь çobana pir nişan verdim. Indi sən Kyrana and iç qi, by sirri heç qəsə ələnə dəq deməjəcəqsən. Qulbadam çok da fiqir etməjib, dedi: Səni and verirəm Kyrana, mənə əl vyrmajьb, salamat evə byrakasan, mən də Kyrana and içərəm qi, sənin by hiləni ələnə dəq açmajacagam; mənim ismətim mənə hər şejdən kijmətlidur... By səzlərdən sonra kalkdь və heç bir şej səjləməjib ev tərəfə jeriş etdi; molla Cəfərkyly da dinməz-səjləməz, dalьnca qedirdi...

Ertəsi qun molla Cəfərkyly pirin tapьlmagьnь min hilə ilə e'lan etdi. Qulbadam isə, şejlərini jьgьb əmisinin evinə qəçdu.

Molla Cəfərkylynyn arvadь molla Tyty, Qulbadamьn çok o jan-by janьna qeçirdi qi, bynyn tez-tələsiq qəçməqinin səbəbini bilsin; fəkət «əmim jalkьzdyr, bakanь jokdyr» səzlərilə canьnь kyrtardь.

Zatən, molla Tyty, Qulbadamьn qəçməqinə çok şad idi; çunqu ərinin Qulbadama olan «mehribançьlьgьnь» qərurdu və hiss edirdi. Qulbadamьn əri ələndən sonra by «mehribançьlьk» daha da artmьşdь. Molla Tyty Qulbadam tərəfindən arxajьn idi; çunqu Qulbadamь urəqdə təmiz adam bilirdi; fəkət ərinin vicdansьz bir hərif olmagьnь da çok jaxşь bilirdi. Qənə necə olsa, fiqir edirdi: bəlqə əri Qulbadamь aldь; çunqu molla Tytydan molla Cəfərkylynyn təq bir ogly var idi. Hətta kardaşь ələndən bir neçə qun sonra evlad barəsində bir balaca səhbət də olmyşdy... Molla Tyty isə, belə dərin məsələləri tez başa duşərdi. Jə'ni bir çətin də məsələ jok idi qi, başa duşməsin... Molla Tyty, qişilərin xasijjətini bilirdi, bilirdi qi, ciblərində bir az artьk pyl olanda arvat fiqrinə duşərlər... Xusysən əz ərini jaxşь tanьmьşdь. Hala kardaşь sag iqən, molla Cəfərkylynyn başьndan hər dən bir kara





fiqirlər qeçərdi... O dejil idi qi, kardaşьnьn ølməqini istəjə idi... Xejr, kardaşь jaman bir mərəzə dyçar olmyşdy; ona binaən hər dən bir fiqir edərdi; bəlqə birdən øldu, sonra? Qulbadam necə olsyn?

Molla Cəfərkyly øzunu gejrətli musəlmanlardan hesab edərdi istərdi qi, «islam milləti artsьn»... Hətta molla Tytynyn kylagьnь doldyrmak uçun kardaşь øləndən sonra hər dən bir səhbət açьb, dejərdi: Bilirsənmi, islamda bir çok şej var qi, biz hala ony lazьmьnca anlamamьşьk; məsələn: iqi, uç, dørt arvat almak məsələsi bøjuq əhəmijjətli bir məsələdur. Hejf qi, biz başa duşməjiriq; bynyn əsil səbəbi bydyr qi, islam milləti çokalsьn, kuvvətli olsyn ...Molla Tyty da çunqu mərsijəxanlьk edərdi. Ona binaən belə naziq mətləbləri tez duşunərdi və onyn cavabьnda həmişə dejərdi: Çok oldy nə xejiri. Odyr, bir oglyn var, jaxşь Kyran okymak da bilməjir. Molla Tytynyn fiqrincə bir musəlman qi, Kyran okymak bilmədi, butun musəlman olmazdь və həmişə arvatlara dejərdi: Ej yşaklarьna Kyran okytmajan analar! O dunjada nə cavab verəcəqsiniz? Dogrydan da bynyn søzləri tə'sirsiz kalmazdь: bir də qørdun, sabah anaьn biri korkyb kьzьnь molla Tytynyn janьna qøndərdi qi, Kyran okytsyn...

Əlbəttə Kyran okymak istəjənin əvvəl çərəqə kyrtarmagь və sonra Kyran başlamagь və sonra Kyran kyrtarmagь bynlar da hamьsь muəllimənin jə'ni molla Tytynyn zəhmətinə baglь bir iş idi və jaxşь da iş qeçirdi.

Nə isə, molla Cəfərkyly belə səhbətləri açanda, molla Tyty aciz kalmazdь. Fəkət bynynla belə Qulbadamь da qøzundən byrakmazdь, hara qetsə idi, Qulbadamь da øzu ilə aparardь, ony təq evdə kojmazdь və ərinin də hərəqətlərinə dørt qøz ilə bakardь. Bir az əri Qulbada-

mьn uzunə xoş baksa idi, uç qunlər ilə jeməzdi, içməzdi, donkyldanardь... Belə əhvalatlar da Qulbadamьn əri eləndən sonra tez-tez olardь, molla Cəfərkyly çok «mehribançьlьk» edərdi; hətta hərdən bir paltarlьk da alardь. Molla Tyty acьklananda dejərdi: «Arvat! allah heç qəsi jijəsiz etməsin, onyn by saat urəqi sьnьkdyr, alanь jokdyr» dejib qeçərdi. Qulbadam isə, ez-ezunə dejərdi: by mənim ərimin kardaşьdyr, məni ez balasь qibi istəjir... Hətta hərdən bir fiqir edərdi: mənə kyry çerəq də versələr, byradan qetməjəcəqəm; onsyz da bynlara kyllykçy lazьmdyr, mən də bynlara kyllykçy əvəzinə işlərəm, qunumu qeçirərəm. Dogrydan da Qulbadam iş sevən, zəhmətqəş bir arvat idi. Evdə kalarqan, səhərdən akşama dəq işləjirdi; fəkət əri eləndən sonra molla Tytynyn məcbyri kyjrygy olmyşdy. Molla Tyty evdə təq kalmasьn dejə, kajnь eləndən sonra ərinin korkysyndan Qulbadamь ezu ilə həmişə aparardь. Molla Cəfərkyly da byny xoşlamazdь; hətta bir qun dilə qəlib dedi: «Canьm, ezun qedirsən, qəlinisə də, evdə kojmajьrsan qi, vaktьnda çajьmь verə». Fəkət belə sezlər molla Tytynyn kylagьna qirməzdi... O qecə də bir fursət idi; molla Cəfərkylynyn əlinə duşmuşdu... Xəbər qəldi qi Qulbadamьn əmisi jaman haldadyr. Molla Cəfərkylyny çagьrьr. Haman qun də molla Tytynyn bir az qejfi jok idi; çunqu qunduz mərsijə okyjyb, çok çьgьr-bagьr etmişdi qi, məclisi aglatsьn: pyl jьgьlan qun idi. Nə isə, bynlarь bir jerdə byrakdь; byrakьb da ərinin tamam hiləsinin açьlmagьna səbəb oldy. Molla Cəfərkyly hala əmisiqilə qedən baş, istəjirdi başlasьn. Sonra fiqir etdi qi, Qulbadamьn halьna muvafik jarajan iş dejil... Hətta fiqrindən by da qeçdi: Əmi jaman halda olyrsa, orada kalsьnlar; çunqu bynlardan başka əmisiqildə heç qim jok idi...



Nə isə, molla Cəfərkyly bir ajьn, bəlqə daha çok vaktьn ərzində başьnda bəslədiqi fiqirləri ilacsьzlьkdan tab qətirə bilməjib, koz agacьnьn dibində aşqar etdi. Aşqar edib də, Qulbadam qim oldygyny duşundu... Molla Cəfərkyly arvatlara həkir bir nəzər ilə bakan qişilərdən idi; fiqir edərdi: hala kьzlarьn barəsində bədqyman olmak jaxşь dejil, dyl arvada nə var? Nə uçun də olmasьn? Fəkət ony duşunə bilməjirdi qi, arvadьn jaman jola duşməqinə çok-çok agьr səbəblər lazьmdyr... Pozgyn əxlakь, çirqin tərbijə, paslanmьş bejini, naziq bir mətləbi duşunməqə kojmajьrdь; kojmajьrdь qi, arvadьn ryhyna javьklaşьb da, arvadda olan qizlin xəzinəni bilsin, duşunsun; duşunsun qi, arvat ancak məhəbbətinin kyrbanь ola bilər... Ony bilməjir idi qi, namys mejdanьnda qişi ilə arvadda bejuq fərk var. Kьz məhəbbətinin kyrbanь olyb da bir çok vakt əvvəlinci halьndan iqinci halьna duşməqinə hejfsilənər, janar, kovrylar; oglanьn isə, halьna təfavut etməz... Kьzda olan by hiss, bir çok arvatda dərin qeq salьb, arvat eldykda da by hiss onyn çok vakt təmiz kalmagьna səbəb olar. Qişilərə kadьnlarьn mərtəbəsini ycaldan by hiss arvatlarьn qişilər hakkьnda həkir bir nəzərdə olmaklarьna da səbəb olar...

Əlbətə molla Cəfərkyly bynlarь duşunsə idi, birdənbirə palçьklь əllərilə Qulbadamьn bojnyndan kycaklamazdь, zəhərli dodaklarь ilə onyn uzundən epməzdi... by vakta dəq mə'min, mukəddəs, allah bəndəsi xəjala qələn molla Cəfərkyly, bir dəkikə də Qulbadam uçun dəhşətli bir ilan olmagьnь duşundumu ja?! Jok! Duşunmədi. Duşunsə idi, xalkdan korkyb da, dərhal pir japmazdь.

Qulbadam təq bir vicdanьndan çəqinib, təmiz kalmagьnь tələb edərqən, molla fəkət qeçinəcəqini və by məsələdə xalkьn nəzərini fiqrindən qeçirib, dərhal jalvardь və and verdi qi by sirr açьlmasьn...

VI

Ƣulbadam yşaklьkdan indijə dəq tamam başьndan ƣeçəni ƣɵz kabagьna ƣətirib, indi əri meşədi Allahverənin jykysyna ɵz janьnda ƣulərdi; fəkət bilməzdi qi, by jyky onyn rahatsьzlьgьna və axьrda daxili bir inkilabьn tərənməsinə səbəb olacakdyr. Meşədi Allahverən səhər namazьnь kьldь, çajьnь içib duqana hazьrlaşьrdь. Adət uzrə balasьnьn janьna ƣəlib danьşdьrdь; jə'ni: ɵzu dejərdi, ɵzu də eşidərdi: Jaxşь, balam! Nə alьm, nə ƣətirim? By sɵzlər həmişəqi sɵzlər idi. Fəkət by ƣun inşaallah bir həftədən sonra ajak dytyb ƣəzərsən, mənim ilə duqana ƣedərsən... sɵzlərini də artьrdь... By sɵzləri dejib ƣetdi; karьdan quçəjə çьkmьşdь: ƣɵrdu, konşylarьndan bir neçəsi jьgьlьb, sɵhbət edirlər; byny ƣɵrub çagьrdьlar və dedilər: Meşədi, eşidibsən? Dejirlər molla Cəfərkyly by ƣecə ɵlubdur.

— A qişi, nə dejirsiniz? Elə şej ola bilməz; dunən bir jerdə dejildiqmi? Sag və salamat; indi nə oldy qi?

— Dejirlər ɵzu də vəbadan ɵlubdur.

— Inanmajьnьz, — dejib meşədi bir az da ƣulumsundu: — Hər ƣah dogrydan da ɵlubdursə, gejri bir səbəbdən ɵlubdur; vəbadan ɵlməƣi jalandyr.

— Xejr-xejr, by saat tədariq uçun pirdən adam ƣəlibdur, o sɵjləjirmiş, hətta dejirlər ɵləndə dejirmiş: məni pir çagьrьr...

Meşədi bir az fiqrə ƣedib dedi: — Hə by ola bilər... Xoşbəxt adam imiş, allah rəhmət eləsin!

— A qişilər by pirin qəramətlərinə daha sɵzmu deməq olar, by sɵzləri dejib, meşədi tələsiq duqanьna ƣetdi. Sonra duqana ƣələn adamlara molla Cəfərkylynyn ɵlməq əhvalatьnь sɵjləjirdi və axьrda da xoşbaxt imiş, allah rəhmət eləsin, pir dejirlər: çagьrьbmьş... — sɵzlərini təqrar edərdi.....



Molla Cəfərkylyny by balaca şəhərdə deməq olar qi, tanьmajan jok idi. Çunqu balacadan-bɵjuƣə qibi pirə ƣetmişdilər, byny konak seven pir sahьbь bilirdilər... Bir çok adam da dəfin ƣunu pirə ƣetmişdi.

Byrada durlu-durlu danьşьklar vardь: qimi dejirdi: namaz vaktь ɵlubdur, qimi dejirdi: ƣecə kajda uzrə pirə zijarətə ƣedirmiş, pirdən ƣyja bir səs ƣəlibdur: «Sənin axьr məqanьn byradyr». Ƣyja by sɵzlərdən sonra korkyb evə ƣəlibdur, urəƣi çatlajьbdyr... Nə bilim, daha nələr sɵjləjirdilər. Fəkət ɵləni jyjanlar fiqir edirdilər: Belə bir saglam, ətli, canlь adam, əcəba nə uçun bir ƣecənin ərzində belə tez ərisin? Nə uçun bynyn ƣɵzləri belə dərinə duşsun və ordy illər ilə mərəz çəqmiş naxoşyn ordy qimi batsьn? By sirri heç qim bilməsejdi də, ev adamlarь jaxşь bilirdilər, xusysən ev kyllykçylarь, ƣədə Almaz və kyllykçy kьz Pəri o ƣecə səhərə qimi jatmamьşdьlar. Pəri tez-tez ləjən təqərdi, Almaz da mollanьn ƣah ajaklarьnь ovardь, ƣah belini, ƣah əllərini. «Aj ajaklarьm jьgьşьr» dejib bagьranda Almaz var kuvvətilə ovyşdyrardь... molla Tyty da işsiz dejildi: ƣah ony ƣətir, ƣah byny ƣətir, dejib, ajak ustə ora-byra kaçardь və sьndalarilə kysyntysyny təmizlərdi... Işsiz ƣɵzə ƣɵrunən bir molla Cəfərkylynyn ogly idi; jə'ni o da işsiz dejil idi. Ƣunduz atasь pirin qəramətlərindən sɵjləjəndə jadьnda kalmьşdь qi, pirin topragь vəba mərəzində şəfa vericidur və eşitmişdi qi, vəbada kysarlar və ajaklar çən olar... By da fiqir etdi qi, bəlqə atasьnь vəba dytybdyr. Tez koz agacьnьn topragьndan ƣətirdi. Bir qasa syja toprakdan salьb, atasьna verdi və dedi: Ata indicə ƣedib, pirin topragьndan ƣetirmişəm, al by syjy iç... Atasь oglyna bakьb uzunu çɵndərdi... Dogrydan da zarafat

məkamь dejildi, qişi əlurdu. Dərisi kyryjyb dili ataş qimi janьrdь. Oglynyn da zarafatь bir tərəfdən... By hindəjarьm can molla Cəfərkylynyn urəjindən bir şej qeçdi: Istədi oglyna dejə: Ogyl həqim! Həqim! Toprakdan bir şej olmaz!

Fəkət deмədi, korkdy ogly by səzləri xalka dejə, xalk da pirdən uz çəndərə və bynyn da nə'şi jerdə kala. Molla Cəfərkyly nahak jerə by fiqirlərə duşmuşdu. Çunqu arvadь molla Tyty bynlarьn hamьsьnь urəqində duzəltmişdi. Molla Tyty qərurdu: əri qedir, fəkət necə etməq qi, ərilə pir də qetməsin? Nə tovr etməq qi, by ocagьn pir ilə ryhanь əlakəsini həmişəliq saklamak? Molla Tytyny təşvişə salan fəkət by fiqirlər idi... Ona binaən, səhər aglaşmaja qələn arvatlara dejirdi: Bilirsinizmi? Molla xoşbaxt adamdyr. Həmişə adət uzrə qecələr jalkьz pirin zijarətinə qedərdi, by qecə də qetmişdi. Birdə qərdum urəqi agzьndan çьkmьş, saralmьş evə kajьtdь, əhvalьnь soryşdykda dedi: Arvat başьma bir iş qəldi: zijarət edirdim, birdən pirdən səs eşitdim: «Axьr məqanьn byradyr» dedi. By səzləri dedi, əlimdə bir az çabalajьb canьnь tapşьrdь...

By səzləri dəjib, arvatlarьn uzlərinə bakardь, qərsun: səzlərinin tə'siri varmь.

Əlbəttə, arvatlar da mərrsijəxan Tytyja inanmajьb, qimə inanacak idilər. «Şuqur, pərvərdiqara! Şuqur qərəminə! Dogrydan da xoşbaxt adam imiş» dejib başlarьnь jьrgalajьrdьlar...

By səzlər arvatlardan qişilərə jajьldь, qişilər həjəcana qəldilər, pirin dərəcəsi, mə'nasь birəbeş artdь. By vakta dəq pirə az inananlar indi piri bir mukəddəs jer bilirdilər. Fəkət arada hərdən bir vəba məsələsi barəsində də zəif-zəif səslər eşidilirdi; by zəif səslər zəiflərdən çьkьrdь. Ona qərə tə'sirsiz kaldь... Hamь bir agьzdan



mollanьn jeri koz agacьnьn dibidur, dejib şəhərdən qələn adamlar, qəntlilər ittifak bagladьlar və bəjuq bir təntənə ilə mollanь pirə verdilər... Və pirin ixtijarьnь molla Cəfərkylynyn oglyna və molla Tytyja tapşьrdьlar.

## VII

Şəhərdən qələnlər by əhvalatь şəhərə, qəntlərdən qələnlər qəntlərə jajdьlar. Aradan durlu-durlu səzlər pьrtdadь, çьkdь. Hər başdan bir səz! Axьrda hətta byny da dejən oldy: qyja o qecə mollanьn qəzunə bir nyr da qərunubmiş... Meşədi Allahverən əlbəttə mollanьn zijarətinə qetmişdi. Xalkьn həjəcana qəlməqi byny da həjəcana qətirmişdi. Pirdən evə kajьdьb, Qulbadama istehza ilə dedi:

— Sən elə kaç həqimə...

— Nədur? Nə olybdyr?—By səzləri dejib, Qulbadam təəccublə ərinin qəzlərinə bakdь.

— Daha nə olacakdyr! Qet, qər, pirdən nələr səjləjirlər...—Meşədi Allahverən tamam qərduqunu, eşitdiqini Qulbadama nəkl etdi.

Qulbadam ancak byny dedi: —Pirin pir jeri var, həqimin həqim jeri...

— Jok, byrada həqimin jeri jokdyr.

— Mənim jykym və by əhvalat qəstərir qi, byrada həqimin mejdanь dejil. Mənim balamь kyrtarsa, bir pir kyrtaracakdyr. Qərəq də jykyma əməl edəm.

— Necə, jə'ni əməl edəsən?—Qulbadam ixtijarsьz səsini ycaldьb, balasьnь bəladan korymak istəjən pişiq qimi, tamam bədənini jьgьşdьrdь.

— Necə qi, jykyda qərmuşəm, elə də qərəq edəm... Balamь bir qun bir qecə pirə qərəqdur salam...

— Jok, mən balamь bir saat da qəzumdən yzaga verməzəm.

— Sənin aglьn çaşьbdyr, dogrydyr, ana balasьnь istər, laqin dindən, məzhəbdən çьkmak da jaramajьr...

— Hansь din? Hansь məzhəb?

— Canьm, xalkьn agzьnь baglamajacaksan qi! Dejirlər: mө'ciz qөrunubdur, mollanьn qөzunə bir adam qөrunubdur... «Sənin məqanьn byradyr» dejib gejb olybdyr. Belə şejlərə inanmamak, dinə-məzhəbə şəqq qətirməq dejilmi?

— By mө'cizi qim qөrubdur? Qim sөjləjir?

— Xalk sөjləjir.

— Xalk qimin dilindən sөjləjir?

— Mollanьn.

— By xalkdan hansь biri by sөzləri molladan eşitdi?

— Arvadь. Arvat! By aşqar şejdur: Mө'cizi ancak bir adam qөrər, hamь qөrsə, o mө'ciz olarmь? Allah өz kudrətini ancak seçilmiş adamlarьn vasitəsilə bildirər. Indi by rəhmətliq də qөrubdur, səsi eşidib korkybdyr, tab qətirə bilməjib, urəqi çatlajьbdyr. Hamь əhvalatь da arvadьna sөjləjibdur...

Qulbadam qənə də bir syal verməq istədi. Fəkət əri sөzunu agzьnda kojyb dedi:

— Daha tamamdyr! Mən qөrurəm: həqimlər sənin bejnini jejiblər... Jok! Tamamdyr! By arvat işi dejil, arvadьn aglь belə şejləri dərq edə bilməz... təvəkki edirəm, belə şejlərə şəqq qətirməjəsən, joksa sənin şəqqin balamьn bədbaxtlьgьna səbəb olar... Inşaallah, by cyma qunu qedəriq, bir qecəliq yşagь kojarьk... Inşaallah şəfa tapar!—By sөzləri dejib, meşədi evdən çьkdь.

Qulbadam xejli vakt ajak ustə, kyrymyş kaldь, qөzunu bir nөktəjə dirəjib, dərin-dərin fiqirlərə qetdi. Sonra ixtijarsьz balasьnьn janьna qedib agladь... «Dilsiz, ajagsьz, agьlsьz balam» dejib, qənə də agladь... Hətta Cəbi matdьm-matdьm anasьna bakьrdь... bakьb da qyja istəjirdi desin: Mənim agьlsьz, dilsiz olmagьmьn səbəbi siz validejnim dejilsinizmi? Zatən demədisə də, Qulbadam by sөzləri həqimdən eşitmişdi... Fəkət nə çarə? Iş-işdən qeçibdur. Həqimin «bəlqə çara ola» sөzləri qənə heç olmazsa, bir az ymyd joly açьrdь... Bəs by pir məsələsi? Daha dogrysy: ərinin jykysy və jykysyna əməl etməq istəməqi? By əhvalat Qulbadamь busbutun dəjişdirdi. Həlim, mehriban, təmiz urəqli Qulbadam birdən-birə şirə dөndu. Hala cyma qununə kalmьşdь... By qundən ərinin sөzlərinə cavab kajtarardь. Belə bir cur'ətli olmagьna өzu də təəccub edərdi. Өzunu arslan hesab edərdi, ərindən başlamьş, hamьnь өzunə duşmən bilərdi, istərdi bir şej etsin, bir şeji cьrsьn dagьtsьn, bir sөz desin. Fəkət bir sөz qi, onyn acьlьgь by xalkь jandьrsьn, sonra istehza ilə kəhkəhə çəqib bynlarьn ustə qulsun... Bynlarьn hamьsьnь istəjirdi; urəqindən kovyrdy, qeçirirdi, bejni kajnajьrdь, fiqir fiqri çaparak kovyrdy da, butun bədənini iztiraba salьrdь. Hazьr neftə bələşmiş bir kyry ot idi, bir kьgьlcьma bənd idi...



Dogrydyr, byndan əvvəl də pirin adьnь eşitməq istəməzdi. Hətta arvatlar pir sөhbəti edəndə, by içindən qulərdi, istehza edərdi. Fəkət açьk-açьgьna deməqə ıxtijarь jok idi. Nə uçun? Ondan өtru qi Kyrana and etmişdi.

Bilməjirəm, Qulbadamьn vicdanь by vakta dəq pirin qizlin kalmasьna necə davam edirdi? Өzu qөrurdu: qor, şil, qar, çaxotkalь, sifilisli... by pirə pənah aparьb mualəcədən bilmərrə uz çөndərmişdilər. Nə uçun by biçarələrin bədbaxtlьgьna səbəb olyrdy? By naxoş validələrdən Cəbi qibilərinin dunjaja qəlmələrinə və Cəbi qibi mualəcəsiz kalmalarьna nə uçun səbəb olyb da by vakta dəq pirin sirrini açmajьrdь? Bilməjirəm by syallar Qulbadamьn başьndan qeçirdimi və qeçirdisə, necə

cavab verirdi? Bilməjirəm, fəkət byny bilirəm qi, Qulbadam pirin sirrini iqi səbəbdən qizlədirdi. Bir səbəb өz namysyny qudməq, iqinci səbəb Kyrana and içməqi idi... Namysyny, ismətini korymak uçun Qulbadam søjləməjirdi, çunqu fiqir edərdi. Hər qah əhvalatь açsa, ola bilsin, bir çok adam bynyn haman vakt təmiz kalmagьna inanmajalar, bəlqə bir iş olybdyr, dejə өzu də, əri də bədnam olalar... By əhvalatь həmin qecə, ja inqi həmin qecənin səhəri açьb desə idi, bəlqə inana idilər... By əhvalatdan bir neçə vakt qeçmiş jə'ni bir şөhrət tapandan sonra əhvalatьn açьlmasь həkikət bir çok adamь şubhəjə salardь. O aləmində vaktьnь qeçirtmişdi. Fəkət nə uçun qeçirtdi? Ondan өtru qi, Kyrana and içmişdi. Kyrana and içməqinə də səbəb qənə bynyn namysy oldy. Həmin dəkikə Qulbadam by hilənin akibətini duşunsə idi, bəlqə də and içməjə idi. Fəkət həmin dəkikə Qulbadamьn ancak bir fiqri var idi: namysyny saklamak, təmiz kalmak, zəhərli ilandan өzunu xьlas etməq. Byndan syvaj başka bir fiqri jok idi. By da Kyrana and içməqinə səbəb oldy. Kyrana and içəndən sonra da sirr verməq Qulbadam qibi inanmьş bir adama asan dejil idi. Qulbadama tərbijə belə verilmişdi. Heç bir şejə and etməməq, xusysən allaha və kyrana. Bynlara and etdin, əməl etməq qərəqdur. Anasь Qulbadama dejərdi: «Kьzьm, olmaja-olmaja, Kyrana and içəsən, çok adamlar Kyrana and içib, sonra andlarьnь pozyb, bөjuq bəlalara qiriftar olyblar. Byndan bөjuq and jokdyr. Kьzьm».—dejib həmişə təqrar edərdi. Yşaklькdan by kylagьnda kalmьşdь. Dogrydan da Qulbadam and içməq sevməzdi, xusysən Kyrana heç vakt and etməzdi. By qecə өmrundə əvvəlinci dəfə idi qi, urəqdən Kyrana and içdi, ancak byndan өtru qi, təmiz kalsьn... Ilanьn sojyk, çirgin əllərindən xьlas olyn. By da arvatlarьn bir sirridur: təmiz kalьb, tərlan qibi qəzməq bir çok hejvandan seçilməjən qişilərə jykarьdan aşagь bakmak bir çok arvadьn sirridur... Dogrydan da ertəsi qun Qulbadam bir agьr daş ustundən atan, bir zor, dəhşətli muharəbədə galib qələn pəhlivan bir təhləqəli vakeədən xьlas olan adam qibi өzunu hiss edərdi... Fəkət bir sөz də dejə bilməzdi.



Əcəba! Indi nə uçun şirə dөnub, istəjir bir sөz søjləsin?.

By syal Qulbadamьn başьndan qeçərqən, javaş-javaş qəlib balasь Cəbijə bakdь, qөrdu qi, işarə ilə dodaklarьnь yzadьr: sy istəjir. Sy verib də birdən fiqrinə qəldi: Bəlqə pirdə qecə sy istədi, qim verəcəqdur? By fiqri başьndan qeçirib ьldьrьm çaxmьş qibi yşagьn ustə dөşənib agladь və sonra өzunə qəlib dedi: Jok! Balacьgьm, mən səni qөzumdən ьrak verməərəm; jok! mən nifrət etdiqim mə'byda kyrban verməərəm!—dejib hunərləndi; quja bir adam, ja bir kuvvə byna urəq verirdi; quja byna dejirdilər: Hak sən tərəfdədur, de, søjlə, bagьr!... Sonra bir az fiqrə qedib, өz-өzunə dedi: Bəs andьm! Mən Kyrana and içdim! Ah rəbbim! Ah mənim allahьm! Mənə jol qөstər! Yca səs ilə qənə yşagьnьn ustə duşub agladь...

—Əlbəttə, ana hamь evladьnь bir qөzdə qөrər, hamьsь bir kuvvətdə, bir dərəcədə cijərparəsidur. Fəkət balalardan zəifi, həmişə naxoş bala, ana urəqinin ən hissli qyşəsində jer tapar... Balaca Cəbi təq oldygyna, həmişə dilsiz-ajaksьz, zəif olmagьna cəhət, Qulbadamьn butun vucydyny məşgyl etmişdi. Jykysyz qecələrmi, ja bir vucyda həmişə dikkətini cəlb etməqmi, ja-inqi Cəbinin məzlymlygy, hərəqətsizliqi, istədiqi şeji søjləməq imqanь olmamagьmь? Bilməjirəm, fəkət ony bilirəm qi, Cəbijə bagladьgь məhəbbət Qulbadamь butun-butunə jandьrьrdь. Meşədi Allahverən də əlbəttə balasьnь se-

vərdi və çok da sevərdi; o da butun-butunə bynyn ygrynda janardь. Fəkət iqisinin məhəbbətindən bir az fərk var idi. Meşədi Allahverən çalьşьrdь qi Cəbi tez ajak dytsyn, qəzsin, səjləsin, bir byny səjsun, sakkalьndan dytsyn, jolsyn, sonra bəjujub, duqanda otyrsyn, sonra byna toj etsin və daha.. nə.. nə... Əlbəttə Qulbadam da bynlarь istəjirdi. Fəkət vakt olyrdy qi, Qulbadamьn başьndan by da qeçirdi: belə də kalsa, kalsьn, təq əlməsin. Meşədi isə, dejirdi: xejr belə kalmagьn nə ləzzəti.

## VIII

«Allahu Əqbər! allahu Əqbər! Əşhədu ənla ilahə illəllah!» səhər, subh vaktь, qun çьkmamьş, tamam canlь şejlər hala jykyda iqən, təbiətin suqyt bir zamanьnda, jarь ojanmьş, jarь jykyda, ьrak bir minarədən by səzlər, by səda sizə necə tə'sir edir, bilməjirəm; fəkət mən sevirəm, mən çalьşьram by səzləri aşqar, ajdьn eşidəm; bilməjirəm by əzanin mysikisimi, ja by səzlərin mə'nasьmь, ja-inqi yşaklьkdan kylaklarьmьn by səzlərə adət etməqimi, bilməjirəm, hansь fəkət ony bilirəm qi, bynda, by səzlər subh vaktь, məni bir gejr aləmə də'vət edirlər. Hala çocyk iqən, səzlərin mə'nasьnь duşunməjirdim, qənə də by səzlər mənim uçun tə'sirsiz dejil idi; o vakt byny duşunurdum qi: dya edirlər, fəkət nə dejirlər, nə deməq istəjir—bilməjirdim. Mə'nasьnь biləndən sonra by səzlər bəni daha artьcak maraklandьrdь. «Allah bəjuqdur, şəhadət verirəm qi, bir allahdan başka jokdyr gejri mə'byd!». Əcəba, təbiətin belə bir suqyt qəzəl vaktьnda allahьn varlьgьna və birliqinə şəhadət verənlər, nə uçun gejri mə'byd qərəqdur arasьnlar? N... şəhəri musəlman şəhəridur; jə'ni ycdan iqi hissəsi musəlmandyrlar, məscidləri var, məscidlərinin yca minarələri var, by yca minarələrdən muəzzinlər səhər-qunorta, akşam, hamь bir agьz, qəzəl səslə dejirlər: şəhadət veririz qi, bir allahdan başka gejri mə'byd jokdyr. Bynlar heç! Hər bir musəlman əzluqundə namazdan mukəddəm by səzləri dejib də sonra namaza şury' edir...



Odyr, meşədi Allahverən də səhər namazьna dyryb by səzləri dejir; onyn konşysy hacь flan da by səzləri dejir, hamь bir agьzdan şəhadət verirlər: bir allahdan başka gejri mə'byd jokdyr...

Əcəba! Nə uçun bynlar pirə hazьrlaşьrlar..? Hətta bir çoky namaz vaktьnda by səzləri dejə-dejə pirə qetməqlərini fiqir edirdi.

Həkikət by cyma pirə hazьrlaşan çok idi, molla Cəfərkylynyn gəflətən əlməqi və əlməqi barəsində durlu-durlu xəbərlər, danьşьklar, çok adamь həjəcana qətirmişdi. Bir çoky da qedirdi qi, by muxtəlif xəbərlərin hansь biri dogry olmagьnь bilsin... Meşədi Allahverən uçun muxtəlif xəbər jok idi, by bildiqini bilirdi, inanmьşdь. Hətta by qecə jykysyny da bir az karьşdьrmьşdь və səhər dyranda əz-əzunə dedi: bəlqə işi tə'xirə salmakdan jykymy da karьşdьrьram. Qərəq idi, jyky qərduqum qecəsinin səhəri yşagь apara idim.

Qecə hətta Qulbadam ilə səzləşdi. Qulbadam qənə razь olmajьrdь. Meşədi agzьna qələn jamanь dejib, Qulbadamь dəjməq də istədi, haman by qecə symanьn axşamь idi, meşədi Allahverən çьgьrьb, bagьrьb, sonra tez jykyja qetdi. Qulbadam isə, xejli vakt ojak kalьb, minmin fiqirlərə duşdu. Bilirdi qi, əri sabah Cəbini aparьb, pirə atacakdyr. Qənə səhərdən axşama dəq olsa, jaxşь, laqin əri jykysynda bir qun bir qecə qərmuşdu. Naçarlьkdan qunduzə davam etməq olar, bəs by karanlьk qecədə, kyry jerdə işarə ilə sy istəsə, qim sy verəcəqdur? Qənə jykyda olarsa, jaxşь bəlqə birdən ajьldь? Karan-

ıьkda korkyb daha jaman olmazmь?... By tovr fiqirləri başьndan qeçirib də, qah өz-өzunə dejirdi: Jok! Gөzum gөrə-gөrə balamь myrdar bir jerə dəxil salmaga kojmaram. Nə olyrsa-olsyn, açьb tamam əhvalatь søjləjəcəgəm... By søzlərdən sonra həmiçə Kyrana and içməgi də fiqrinə gələrdi... Gənə vicdansьz molla Cəfərkyly sag olsa idi, gizlin gedərdi, jalvarardь qi, bəlqə ərini by fiqirdən daşьndьrsьn... O da өldu, өlməgi heç, bynyn өlməgi pirin mə'nəvi cəhətcə daha artьk şөhrət tapmagьna səbəb oldy. Indi bynyn søzlərinə qim inanacakdyr? By fiqirləri başьndan qeçirib, urəgi sьkьlardь: zavallь gah həzin-həzin jorgan altьnda aglardь, gah birdən jorganь ustundən atьb, dyryb otyrardь və hərdən bir balasьna bakьb urəgi od dytyb janardь. Jok! Mən səni əlimdən byrakmam... Səni diri-diri kəbrə kojmam!...

Jok! By søzləri dejirdi; fəkət muəjjən bir jol da tapa bilməjirdi. Vakt olyr qi, belə bir halətdə insan ilacsьz kalьb, өzunu, baxtьnь, zamanəjə, qeçənəcəgə tapşьrьr «bilməjirəm nə jol ilə, fəkət by iş baş dytmasьn gərəqdur» dejib də axьrьncь dəkikəni gөzləjir... Gulbadam da by halətdə, by fiqirdə iqən, jykyja getdi. Fəkət çokda jatmadь, meşədi Allahverənin «Allahu əqbər!» səsi byny ojatdь.

Gulbadam bir søz də søjləməjib, getməq uçun hazьrlaşьrdь. Meşədi Allahverən gecəqi çogyndan sonra bynyn søzsuz jьgьşmagьnь gөrub, urəgdən şad oldy qi, arvadь da bynyn fiqrinə şəriqdur, «davasьz-kalmagalsьz» iş tamam olacakdyr. Meşədi Allahverən hətta dunənqi hərəqətindən bir az da xəcalət çəqirdi; nə uçun Gulbadama elə søzlər dedi və døjməq istədi; sonra gənə өz-өzunə dejirdi: xejr arvat xajlagьnь xoş søz ilə jola gətirməq çətindur, gərəqdur bir az çьgьrmak, bagьrmak



və hətta hərdən bir də uzunu silləjə өjrətməq... By fiqirləri başьndan qeçirərqən, Gulbadamьn gah o janьna-gah by janьna qeçərdi; istəjir idi qønlunu alsьn. Fəkət Gulbadam bir søzdə søjləməjib, lazьm olan tədariqi gөrurdu. Ərinin søzlərinə ancak «hə-jok» dejib tələsirdi...

Əcəba! Nə uçun by zavallь arvat istəmədiqi bir vakiənin tez olmasьna tələsirdi? Gərəq hər dəkikənin, hər saatьn yzanmasьna şad ola idi, fəkət bil'əqis, by tələsirdi.....

By bir həftənin muddətində daxili muharəbə byny busbutun jormyşdy, əzmişdi, tamam hiss damarlarьnь çaxnaşdьrьb, boşaltmьşdь, bir elektrik kuvvəsi lazьm idi qi, by hiss damarlarьnь birdən-birə hərəqətə gətirsin... Bəlqə Gulbadam tələsirdi qi, by halətdən tez xьlas olsyn! Urəgini agьr bir daş basьrdь. Istəjirdi, bir jollyk by agьr daşь atsьn, çunqu by daşьn agьrlьgьna dalıa davam gətirə bilməjirdi.

Nə isə, balasьnь gөturub, fajtona mindi, əri də şad, xurrəm, Cəbinin uzunə baka-baka fiqir edirdi: indi kycakda gedirsən, sabah ojnaja-ojnaja gələcəqsən...

Jolda gənə pirə gedənlər bir-birini çaparak, kovyrdylar, by dəfə hava isti dejildi. Subhdən gøjun uzunu kara bylytlar dytmyşdy... Gəlib çatdьlar... Zijarətə gələnlər çok idi, qorlar, şillər, durlu-durlu naxoşlar, hala dunəndən gəlib dəxil duşmuşdulər. Həkikət molla Cəfərkylynyn joklygy mə'lym olyr idi... Hamь, sanqь, bir jasa batmьşdь. Qişilər өz aralarьnda bir-birinə pirin barəsində søjləjirdilər, molla Tyty da arvatlarьn arasьnda istədiqini işlədirdi. By dəfə gejri qəntdən gələn bir molla mejdanь boş gөrub, pirin qəramətlərindən søjləjirdi; hamь: arvat-yşak, qişilər, koz agacьnьn altьna jьgьlьb, kylak asьrdьlar. Molla Cəfərkylynyn əhvalatьnь nəkl edən vakt: «Allah, sənə çok şuqur!» dejib xalk bir-biri-

nə dəjdi. Çolaklar, qorlar, çaxotkalьlar: «A qişilər, birсə kojynyz bizi, pirə javyk qedəq» dejib koz agacьna tərəf surunurdulər. By hində, meşədi Allahverən өz jykysyny səjlədi və indi balasьnь sabaha qibi pirə dəxil salmagьnь da e'lan etdi. By əhvalat daha artьcak xalkь tərənnumə qətirdi, «Allah sənə çok şuqur!» sədasь daha da ycaldь...

Qөj qyryldajьrdь, şimşəq ojnajьrdь... Meşədi Allahverən arvadьna tərəf qedib, oglyny anasьndan aldь. Qulbadam bir sөz də səjləməjib, Cəbini verdi. Fəkət verən vakt Cəbi anasьna bakdь...

By bakьşda bir sirr var idi, bilməq olmajьrdь nə sirrdur, Cəbi həmişə anasьna bakardь, fəkət indiqi bakьşda bir atəş bir elektrik kuvvəsi var idi. By gejri bir bakьş idi. Qyja anasь by bakьşdan hiss etdi qi: dilsiz Cəbi istəjir desin: anacьgьm! Sən məni nifrət etdiqin kyry jerə nə uçun byrakьrsan? Qulbadam өzunu itirib, tam bədəni iztirabda iqən, dizi ustə çөqdu, əllərini jykarь dytyb dedi: «Ej mənim allahьm! Mənə bir kuvvət ver qi, urəqimdəqini dejə bilim...».

By vakt xalk bir-birinə qeçdi. Arvatlar həjəcana qəldilər. Dunəndən bəri dilsiz hejqələ bənzər Qulbadam, indi dəhşətli, jьrtьcь bir şirə okşardь, qөzləri parьldardь... Butun bədəni titrəjərəq, yca səslə dedi:

— Mən nifrət etdiqim məqandan balama nicat qөzləməjirəm!—By sөzləri dediqdə hamь bir agьzdan: istigfar et! Allah amandyr! Arvat dəli olybdyr!

— Jok! Mən dəli olmamьşam, fəkət sizin dəli olmagьnьza səbəb olmyşam.

— Jymsana bynyn agzьnь!—dejib meşədi Allahverənə tərəf hamь uz çөndərdi.

Meşədi əlində balasь arvadьn tərəfinə hirsli qələrqən, Qulbadam sanqь bir arslan olyb dedi: Qəlmə javьk,



mən indi by hində bir allahdan başka qimsəni bөjuq bilməjirəm. Haman allahdyr məni indi danьşdьran, qimsə mənim agzьmь jyma bilməz. By vakta dəq mənim agzьmь jyman da haman allahьn qəlamь idi. Namysymy təmiz saklamak uçun mən hənyz byrada Kyrana and içdim qi, o jatan bədbaxtьn hiləsini өlənə dəq sөjləməjim (əlini mollanьn kəbrinə yzadar). Haman by jerdə mənim ismətimə, namysyma əl yzatdь. Mən çьgьrdьm gəş etdim, ajьlandan sonra Kyrana and içdi qi, mənim namysyma əl yzatmasьn. Mən də Kyrana and içdim qi, өlənə dəq bynyn hiləsini aşqar etməjim... fəkət çoban olmasejdi, by pir də olmazdь... Hamь bir-birinə bakьb hejran kaldьlar. By vakt qişilərin içindən bir şəxs ajrьlьb əlində bөjuq bir daş qumbəzə tərəf qəldi və daşь qumbəzə vyryb dagьtdь və dedi: by topraklara əvvəlinci uzunu surtən mən olmyşam... By vakt Qulbadam yca səslə dedi: Balamь mənə veriniz! Veriniz balamь!... Butun bədəni titrəjib jьkьldь, gəşş etdi.

Arvatlar tab qətirə bilməjib, agladьlar, qişilər başlarьnь jerə tiqdilər... Bilməjirəm, by vakiədən sonra by mahalьn musəlmanlarь həkiki mə'bydlarьnь tapdьlarmь?

Inv. №

1930
684